Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

22 MAY 2020-ci il

№ 83 (4214)

Qiyməti 40 qəpik

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

# PAŞİNYANIN GÜRCÜSTAN BAŞ NAZİRİ İLƏ MÜQAYİSƏSİ - ERMƏNİ MEDİASI BU DƏFƏ «ÖLDÜRÜCÜ DƏQİQLİKLƏ» VURDU...

■ səh. 9 ■

Bakı İrəvana son mesajlarını verir - münaqişənin hərbi yolla çözümü labüd görünür... ■ səh. 6 ■

Azərbaycan Avropa qaz bazarında Rusiyanın da xilaskarına çevrilir... ■ səh. 11 ■

Avrasiya İB-nin son iclasında Paşinyanın məsxərələri - Rusiya mediası hücuma keçdi ■ səh. 5 ■

200-ə yaxın dövlətin Ümumdünya Səhiyyə Təşkilatına ciddi şübhələri - ÜST-Çin tandemi, ÜST-nin antivirus xidmətlərini kim idarə edib... ■ səh. 4 ■

Dağlıq Qarabağı Azərbaycan ərazisi kimi təsdiqləyən beynəlxalq sənədlər... ■ səh. 10 ■

Kreml erməni faşizminə qarşı hərəkətə keçir - baba Paşinyan məsələsi ciddi katalizator rolunda... ■ səh. 7 ■

Azərbaycan Ensiklopediyası barədə yeni iradlar - redaksiya heyətinin reaksiyaları... ■ səh. 13 ■

"Sədərək" TM sahibi dükan sahiblərindən icarə haqqı tələb edir - həm də iş olmayan karantin günləri üçün... ■ səh. 15 ■



■ səh. 8-9 ■

## Prezident rüşvətlə sözdə yox, əməldə mübarizə getdiyini bir daha bəyan etdi - Həbs edilmiş başçıların yerinə təyinatlar...



Dünyanın iki nəhəng dövlət başçısının İlham Əliyevə eyni məzmunlu mesajı - etibarlı tərəfdaşlığın vahid ünvanı... ■ səh. 3 ■

Həbs edilmiş beş icra başçısından tək Vilyam Hacıyev - sabiq məmur bu qədər faktla öz həbsi ilə niyə barışmır... ■ səh. 5 ■



Zakir Həsənov, ya VİP sədri Əli Əliyev - Qarabağ probleminin həlli doğrudanmı tək nazirdən asılıdır... ■ səh. 4 ■

■ səh. 3 ■ Qərbi Azərbaycan Mühacir Hökuməti təşəbbüsünə maraqlı irad - QAMH-ın qondarma "DQR"-la müqayisəsi doğrudurmu...



■ səh. 2 ■ Koronavirus dövründə Azərbaycanı bütün dünyadan fərqləndirən növbəti fakt - muzdla işləyənlərin sayı 4,1 faiz artıb...



■ səh. 14 ■ Mədəniyyət Nazirliyi strukturlarında daha bir neqativ üzə çıxır - qeyri-ixtisas sahibləri...



■ səh. 12 ■ Karantin dövrü, tələbələr Bakıda yox - kirayə mənzillərin bahalaşmasının "müəmmalı" səbəbi...



■ səh. 15 ■ Restoran toyları barədə virusdan sonra hakim rəy - icazə verilsə də, xüsusi qaydalar...



# Rəcəb Tayyib Ərdoğan Prezident İlham Əliyevi təbrik etdi



**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Prezidenti İlham Əliyevə məktub ünvanlayıb.**

Məktubda deyilir: "Cənab Prezident, Əziz qardaşım.

Can Azərbaycanın milli bayramı - Respublika Günü münasibətilə millətim adından və şəxsən öz adımdan Zati-alinizi və Sizin şəxsinizdə bütün Azərbaycan xalqını ən səmimi duyğularımla təbrik edirəm.

Müstəqilliyinin bərpasından bəri gündən-günə daha da inkişaf edən Azərbaycanın qətiyyətli liderliyinizlə əldə etdiyi mühüm nailiyyətlərə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şuramızın sonuncu iclasında fəxrlə bir daha şahid oldum. İnamla və qüdrətli bir şəkildə Cümhuriyyət tarixinin 102-ci yaşına qədəm qoyan Odlar Yurdunun bütün sahələrdə böyük addımlar atmağa davam edəcəyinə ürəkdən inanıram.

Mükəmməl səviyyədə olan strateji əlaqələrimizi "Bir millət, iki dövlət" ruhu ilə daha da genişləndirmək istiqamətindəki qarşılıqlı iradəmizdən böyük məmnunluq duyuram. Qəlbləri birlikdə döyünən ölkələrimizin indiyə qədər olduğu kimi, bundan sonra da milli məsələlərimizdə qardaşlıq həmrəyliyini davam etdirəcəklərinə, bölgəmizdə sülh, rifah və sabitliyə sanballı töhfələr verməyə davam edəcəklərinə inamım qətidir.

**Fürsətdən istifadə edərək, bir daha Zati-alinizə cansağlığı və xoşbəxtlik, dost və qardaş Azərbaycan xalqına əmin-amanlıq və rifah arzularımızı çatdırıram".**



## Əbülfəs Qarayev Mədəniyyət naziri vəzifəsindən azad edildi

**Prezident İlham Əliyev Əbülfəs Qarayevin Azərbaycan Respublikasının Mədəniyyət naziri vəzifəsindən azad edilməsi haqqında sərəncam imzalayıb.**

Sərəncama əsasən, Əbülfəs Mürsəl oğlu Qarayev Azərbaycan Respublikasının Mədəniyyət naziri vəzifəsindən azad edilib.

# Azərbaycanda koronavirusa 118 yeni yoluxma, 87 nəfər sağaldı, 1 nəfər vəfat etdi

**Azərbaycanda koronavirus infeksiyasına daha 118 yoluxma faktı qeydə alınıb, 87 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan baki-xeber.com-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 1956-cı il təvəllüdlü vətəndaş vəfat edib. Hazırkı dövrədək ölkəmizdə 3749 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 2340 nəfər müalicə olunaraq sağalıb, 44 nəfər vəfat edib, 1365 nəfərin xüsusi rejimli xəstəxanalarda müalicəsi davam etdirilir. Həmin şəxslərdən 42 nəfərin vəziyyəti ağır, 60 nəfərin vəziyyəti orta ağır qiymətləndirilir, digərlərinin səhhəti stabildir.



Ötən müddət ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 252.496 test aparılıb.

# Koronavirus dövründə Azərbaycanı bütün dünyadan fərqləndirən növbəti fakt - muzdla işləyənlərin sayı 4,1 faiz artıb...

## *Əli Əlirzayev: "...xeyli sayda işçi ilə əmək müqaviləsi bağlanıb"*

**Koronavirusla əlaqədar olaraq iqtisadi fəallığın aşağı düşməsi səbəbindən bu il dünyanın əksər ölkəsində işləyənlərin sayı azalıb. Çoxsaylı iş yeri bağlandığı üçün işsizlərin sayı artıb. O cümlədən, muzdla çalışanların da sayı azalıb. Pandemiya məhz bu sektora daha çox təsir göstərib.**



Ancaq dünya ölkələrindən fərqli olaraq, Azərbaycanda muzdla çalışanların sayı artıb. Statistika Komitəsinin verdiyi məlumata görə, bu ilin 3 ayında muzdla işləyən işçilərin sayı ötən ilin eyni dövrü ilə müqayisədə 65,3 min nəfər və ya 4,1% artaraq 1 646,1 min nəfər olub. Məlumata görə, onlardan 911,7 min nəfəri iqtisadiyyatın dövlət sektorunda, 734,4 min nəfəri isə qeyri-dövlət sektorunda fəaliyyət göstərib. Muzdla işləyənlərin 20,3%-i təhsil, 17,9%-i ticarət, nəqliyyat vasitələrinin təmiri, 13%-i sənaye, 8,2%-i əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 7,5%-i tikinti, 6,9%-i dövlət idarəetməsi və müdafiə, sosial təminat, 4,6%-i nəqliyyat və anbar təsərrüfatı, 3,5%-i peşə, elmi və texniki fəaliyyət, 3,3%-i kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 1,8%-i maliyyə və sığorta fəaliyyəti, 13%-i isə iqtisadiyyatın digər sahələrində məşğul olub.

Görünən odur ki, dövlətin həyata keçirdiyi bir sıra proqramlar, tədbirlər iqtisadi sferada nəinki azalmanın qarşısını alıb, eyni zamanda, bu sahədə çalışanların sayı artıb. Bunun nəticəsidir ki, muzdla çalışanların sayı Azərbaycanda azalmayıb.

Sözügedən məsələ ilə bağlı fikirlərini "Bakı-Xəbər"lə bölüşən iqtisadçı-alim Əli Əlirzayevin sözlərinə görə, ölkədəki bu müsbət tendensiya bir sıra amillərlə bağlıdır: "Məsələ ondadır ki, son illər kölgə iqtisadiyyatının azaldılması ilə bağlı bir sıra işlər görülüb. Əmək müqaviləsi bağlayanların sayı çoxalıb. Qabaqlar muzdla çalışanlar olurdu, amma onlarla əmək müqaviləsi bağlanmırdı. İndi isə vəziyyət tamam fərqlidir. Digər tərəfdən, koronavirus pandemiyası yayılandan sonra Prezident İlham Əliyevin təşəbbüsü ilə hökumət bir sıra proqramlar hazırlayıb. 100 min ödənişli ictimai iş yeri yaradılıb və artıq bununla bağlı xeyli sayda işçi ilə əmək müqaviləsi bağlanıb. Bununla yanaşı, mövcud iş yerlərində ixtisarlar aparılmır. Dövlət bununla əlaqədar özəl sektora maliyyə yardımı göstərir. Sadəcə, məhsuldarlıq azalıb. Bu da indiki dövrdə təbiidir. Çünki xarici ticarət əlaqələri azalıb. Ona görə də görülən tədbirlər, həyata keçirilən islahatlar əhalinin mənafeyinə uyğundur. Məqsəd ondan ibarətdir ki, iş yerləri bağlanmasın. Bütün bu görülən tədbirlər muzdlu iş yerlərinin sayının artmasına öz təsirini göstərir".

*"Bütün bu görülən tədbirlər muzdlu iş yerlərinin sayının artmasına öz təsirini göstərir"*

***Vidadi ORDAHALLI***

# Dünyanın iki nəhəng dövlət başçısının İlham Əliyevə eyni məzmunlu mesajı - etibarlı tərəfdaşlığın vahid ünvanı...

**Fikrət Sadıqov:** *"Bütün bunlar Azərbaycanın həm nüfuzunun, həm də regionda vacib strateji əhəmiyyətinin daha da artacağından xəbər verir"*

**Bu günlərdə Rusiya Prezidenti Vladimir Putinin Prezident İlham Əliyevlə telefon danışığı olub. Telefon söhbəti zamanı dövlət başçıları koronavirus pandemiyası ilə mübarizə sahəsində görülən işlərdən danışıb, bu istiqamətdə ölkələrimizin sərhəd-keçid məntəqələrində qarşılıqlı əlaqələndirmə şəraitində həyata keçirilən tədbirlər barədə fikir mübadiləsi aparıblar.**

*"Ölkəmizin regionda müstəqil siyasət yeritməsi Birləşmiş Ştatların da maraqlarına uyğundur"*

Bununla yanaşı, dövlət başçıları Azərbaycanla Rusiya arasında strateji tərəfdaşlıq əlaqələrinin bütün sahələrdə uğurla inkişaf etdiyini vurğulayaraq, əməkdaşlığın postpandemiya dövründə inkişaf perspektivlərini də müzakirə ediblər. Yəni Rusia Azərbaycanla strateji əməkdaşlığın dərinləşməsində maraqlıdır.

Bundan əvvəl ABŞ Prezidenti Donald Tramp Prezident İlham Əliyevə göndərdiyi məktubunda eyni şeyləri ifadə edib. Məktubda Tramp bildirib ki, Birləşmiş Ştatlar Azərbaycanın suverenliyini və müstəqilliyini güclü şəkildə dəstəkləyir: "ABŞ və Azərbaycan beynəlxalq təhlükəsizliyi gücləndirmək, Avropanın enerji marşrutlarını və mənbələrini şaxələndirmək və iki böyük xalqın insanlarına parlaq gələcək qurmaq naminə təxminən 30 il əməkdaşlıq ediblər. Bu sahələrdə Azərbaycanın mühüm töhfələrini dəyərləndirir, dəstəklənməsinə söz verdiyimiz demokratik idarəetməni təşviq edən, habelə hüquq və azadlıqları qoruyan bütün addımların atılmasına həvəsləndiririk. Koronavirus pandemiyası ilə üzləşdiyimiz bir vaxtda Birləşmiş Ştatlar Azərbaycan xalqının yanındadır. Biz Minsk Qrupunun həmsədrlərindən biri kimi Dağlıq Qarabağ münaqişəsinin dayanıqlı və sülh yolu ilə həlli üçün danışıqların dəstəklənməsində iştirakımızı davam etdirəcəyik".

Bütün bu deyilənlərin fonunda, böyük güclərin Azərbaycana bu marağı ölkəmizə nə vəd edir?

Məsələyə münasibət bildirən keçmiş diplomat, politoloq Fikrət Sadıqovun sözlərinə görə, bütün bunlar Azərbaycanın həm





nüfuzunun, həm də regionda vacib strateji əhəmiyyətinin daha da artacağından xəbər verir: "O baxımdan iki böyük güc mərkəzinin Azərbaycana belə önəm verməsi mühüm əhəmiyyət kəsb edir. Azərbaycanın hər iki dövlətlə siyasi müstəvidə münasibətləri inkişafdadır. Bu dialoq bizim strateji partnyorluğumuzun bundan sonra da inkişaf edəcəyini göstərir. Azərbaycan bütün ölkələrlə əlaqələrin inkişafında maraqlıdır. O cümlədən Rusiya ilə əlaqələrin inkişafında maraqlıdır.

Çünki biz qonşuyuq. İki ölkə münasibətləri qarşılıqlı maraqlar əsasında qurulub. Düzdür, biz çox istərdik ki, Rusiya Dağlıq Qarabağ münaqişəsinin həllində daha da güclü şəkildə iştirak etsin. Yəni daha təsiredici addımlar atsın.

Ancaq düşünürəm ki, tərəflər arasında əlaqələrin inkişafı ölkəmizin maraqlarına cavab verir. Bununla yanaşı, Azərbaycanın regionda müstəqil siyasət yeritməsi Birləşmiş Ştatların da maraqlarına uyğundur.

**Təsadüfi deyil ki, ABŞ Azərbaycanla əlaqələrə xüsusi önəm verir. Həyata keçirilən enerji, nəqliyyat və digər layihələrə dəstək verir. Azərbaycan bölgədə etibarlı tərəfdaşdır. Bütün bunlar Azərbaycanın artan önəminin və nüfuzunun göstəricisidir".**

***Vidadi ORDAHALLI***

# Qərbi Azərbaycan Mühacir Hökuməti təşəbbüsünə maraqlı irad - QAMH-ın qondarma "DQR"-lə müqayisəsi doğrudurmu...

**Qabil Hüseynli:** *"Bu, qondarma "DQR"-ə əks qoyula biləcək bir ideyadır"*

**Mayın 10-da Mühacirətdə Qərbi Azərbaycan (İrəvan) Respublikası elan edilib. Qərbi Azərbaycan (İrəvan) Respublikası ilə bağlı təşəbbüs qrupunun sədrliyinə Türkiyənin Kayseri Universitetinin professoru, tanınmış ermənişünas-alim Qafar Çaxmaqlı seçilib.**



Təşəbbüs qrupunun məram-məqsədləri birmənalı qarşılanmayıb. Qərbi Azərbaycan (İrəvan) Respublikasının elan olunmasını birmənalı dəstəkləyənlərlə yanaşı, bunu utopiya, reallıqdan uzaq məsələ kimi qiymətləndirənlər də var. Bəziləri deyir ki, 25 il bundan qabaq Qərbi Azərbaycan Mühacir Hökuməti ilə bağlı müzakirələr aparılırdı və bu bir nəticə vermədi. İdeyanın əleyhdarı olanların bir qismi isə hesab edir ki, bu, Dağlıq Qarabağdakı separatçı rejimin də əlinə işləyə bilər. Dünyada deyərlər ki, siz də Ermənistanla bağlı eyni addımı atıbsınız və nəticədə ya qondarma "DQR", ya da Qərbi Azərbaycan Mühacir Hökuməti hansısa ölkə tərəfindən tanına bilər. Yəni pis presedentin əsası qoyula bilər. Aparılan bu paraleli əsaslı saymaq olarmı?

Əslən Qərbi Azərbaycandan olan politoloq Qabil Hüseynli "Bakı-Xəbər"ə dedi ki, təşkilatla əlaqəsi yoxdur:"İdeyanı isə bəyənirəm, müdafiə edirəm. Deyilən formada paralelin aparılmasını da yersiz sayıram. Bunlar öz müqəddəratını təyin etmək istəmir, öz dədə-baba torpaqlarına qayıtmaq istəyirlər. Respublikanı da bu niyyətlə elan ediblər. Əksinə, bu, qondarma "DQR"-ə əks qoyula biləcək bir ideyadır. Çünki bir millətin iki dəfə öz müqəddəratını təyin etmək hüququ yoxdur. Beynəlxalq hüquqda da bu cürdü. Necə ola bilir ki, Ermənistan özünün birinci respublikasını yaradıb, sonra da işğal edilmiş Azərbaycan ərazilərində ikinci bir dövlət yaratmağa cəhd edir? Necə ola bilir ki, 3,5 milyon sayı olan ermənilər iki dəfə müqəddərat təyin edə bilər, ancaq 50 milyonluq azərbaycanlılar itirilmiş torpaqlarına qayıtmaq məqsədilə təşkilatlana bilməz? Bunlar hansısa dövlətdən ayrılaraq, ayrıca dövlət qurmaq istəmirlər, doğma yurdlarına qayıtmağı hədəfləyiblər.

Qeyd edək ki, tarixdə müxtəlif mühacir hökumətləri yaradılıb. Azərbaycan Xalq Cümhuriyyəti sovetlər tərəfindən süquta yetiriləndən sonra Cümhuriyyət qurucuları mühacirətdə fəaliyyətlərini davam etdiriblər. Faşistlər Fransanı işğal edəndə Fransa Mühacir Hökuməti yarandı. Daha sonra Avropanın digər bir sıra ölkələrinin faşistlər tərəfindən işğalından sonra, məsələn, Albaniya özünün mühacir hökumətini yaratdı. Yəni mühacirətdə olan hökumət praktikası dünyada geniş yayılıb. Hər bir millətin siyasi elitası öz millətini təmsil etmək üçün bu formanı seçir və təşkil edir, sonradan da tanınmaq üçün BMT-yə müraciət ünvanlayır".

***Məhəmmədəli QƏRİBLİ***

**Sosial şəbəkələrdə müxalifətdə olan Vətəndaş və İnkişaf Partiyasının (VİP) sədri Əli Əliyevin adından səsləndirilən fikirlər paylaşılır. Həmin fikirlərdə partiya sədri Ali Baş Komandan kimi İlham Əliyevə müraciət edərək, ona müdafiə naziri vəzifəsinin verilməsini təklif edir.**

***Əli Əliyev:*** *"Müxalif partiyanın sədri kimi mənim belə təklif irəli sürməyimdə qeyri-qanuni nəsə yoxdur"*

***Fərəc Quliyev:*** *"Bir personanın dəyişməsi ilə məsələnin həllinin mümkünlüyünə inanmıram"*

# Zakir Həsənov, ya VİP sədri Əli Əliyev - Qarabağ probleminin həlli doğrudanmı tək nazirdən asılıdır...





Bu xüsusda qeyd edilir ki, Əli Əliyev 6 aya ermənilər Şuşadan çıxaracağına söz verir və bildirir ki, edə bilməsə, başına güllə vurub özünü öldürəcək. Belə fikirlərin Əli Əliyev tərəfindən həqiqətən səslənib-səslənmədiyini aydınlaşdırmaq üçün VİP sədrinin özü ilə əlaqə saxladıq. Partiya sədri qəzetimizə açıqlamasında faktı təsdiqlədi: "Bəli, mən analoji məzmunda fikirlər səsləndirmişəm. Bu, fəlsəfəyə bağlı olan məsələdir. Mən inanıram ki, həmin vəzifəni mənə verəcəklər. Ermənilər artıq bizim səbrimizi tarıma çəkib. Şuşanın işğalı günü gedib orda müxtəlif performanslar göstərirlər. İndi də qondarma qurumun "prezidentinin" inauqurasiyasını Şuşada keçirirlər. Müxalif partiyanın sədri kimi mənim belə təklif irəli sürməyimdə qeyri-qanuni nəsə yoxdur. Alternativ fikir ortaya qoyaraq bildirirəm ki, müxalif partiyanın rəhbəri kimi mənə həmin vəzifəni versinlər və fəaliyyətimə mane olmasınlar, 6 aydan sonra mən sizi Şuşaya aparım. Davamında təklif etmişəm ki, bu aksiya həyata keçiriləndən sonra dərhal istefa verəcəm və İlham Əliyevin ömürlük prezident olması üçün referendum təşəbbüsü qaldıracam. Bundan yaxşı nə ola bilər?"

Doğrudanmı Qarabağ probleminin həlli müdafiə nazirinin kim olması kimi fərdə bağlı məsələdir?

Milli Dirçəliş Hərəkatı Partiyasının sədri Fərəc Quliyev "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Əli bəy bu çıxışı vətənpərvərlik aspektindən edib:"Ancaq hesab edirəm ki, ölkəyə rəhbərlik edən şəxslər də ondan az vətənpərvər deyillər. Əli Əliyev təcrübəli siyasətçidir, real şəraiti bilir. 2016-cı ildə Azərbaycan tərəfi ciddi uğurlara imza atamağa yaxın idi, proses də başlamışdı. Nəticə nə oldu? Rusiya bizim irəliləyişimizə mane oldu. Digər böyük güclər də məsələnin dinc yolla həll ediləcəyinə söz verdilər. Bu məsələdə bəlkə də ən az əli olan ermənidir. Ondan maşa kimi istifadə edirlər. Açıq demək lazımdır ki, Rusiya Qarabağın kimdə qalmasından daha çox, orada münaqişənin qalmasında maraqlıdır. İran da bu məsələdə fərqli siyasət yürüdür. Bizə dost kimi görsənən bəzi Qərb ölkələri də Azərbaycanı zəif durumda görmək istəyirlər ki, lazım olanda pressinq edib iqtisadi mənfəətlər əldə etsinlər. Burada həm də böyük güclərin maraqları toqquşur. Bütün bu faktorlar Qarabağ məsələsinin həllində önəmlidir. Hesab edirəm ki, bizim müxalifətlə iqtidarın arasında Qarabağ probleminin həllinə baxışda prinsipial fikir ayrılığı yoxdur. Ona görə də bu məsələdə, personadan daha çox, sadaladığım və sadalamadığım bir çox amillərin mühüm rolu var. Vətənpərvər mövqedən deyilən fikrə hörmətlə yanaşıram. Həm də qeyd edirəm ki, Zakir Həsənov kifayət qədər vətənpərvər insandır. Prezident isə hətta bir çox adamların qorxaraq deyə bilmədiyi fikirləri dilə gətirir. Nəinki Qarabağla bağlı məsələni, hətta bizim əzəli torpağımız olan Zəngəzurun, İrəvanın da məsələsini qaldırıb. Bir personanın dəyişməsi ilə məsələnin həllinin mümkünlüyünə inanmıram. Xalq olaraq birləşməliyik. Bütün siyasi güclər bir mövqedən çıxış etsə, böyük güclər xalqın nə istədiyinin fərqinə varacaq. Azərbaycan dövləti də postpandemiya dönəmi üçün elan etməlidir ki, münaqişənin sülh danışıqları yolu ilə həlli imkanları tamamilə tükənib, yeganə həll variantı hərbi yoldur".

***Məhəmmədəli QƏRİBLİ***

**Birləşmiş Millətlər Təşkilatının (BMT) 194 üzv dövləti Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) koronavirus pandemiyası ilə bağlı fəaliyyəti mövzusunda araşdırma aparılmasına qərar verib. Dünya miqyasında COVİD-19-la mübarizənin davam etdiyi bir dövrdə ÜST-nin pandemiyaya qarşı gördüyü tədbirlər beynəlxalq ictimaiyyət arasında mübahisə və müzakirələrə səbəb olub.**

# 200-ə yaxın dövlətin Ümumdünya Səhiyyə Təşkilatına ciddi şübhələri - ÜST-Çin tandemi, ÜST-nin antivirus xidmətlərini kim idarə edib...




Belə ki, ÜST bu istiqamətdə fəaliyyətsizlikdə belə ittiham olunub. Bu səbəbdən İsveçrənin Cenevrə şəhərində keçirilən ÜST-nin illik toplantısına BMT ölkələri də qatılıb. Onlar virusun qaynağı və insandan insana necə yoluxması mövzusunda beynəlxalq araşdırmanın başladılmasına qərar veriblər. BMT-yə üzv ölkələrin araşdırma tələbinə ÜST-ün baş direktoru Tedros Adhanom Qebreyesus müsbət cavab verib. Araşdırmanın başlayacağı tarix isə açıqlanmayıb.

200-ə yaxın dövlətin Ümumdünya Səhiyyə Təşkilatına ciddi şübhələri nədən yaranıb?

Müşahidələr və araşdırmalar göstərir ki, artıq bu qəbildən olan ittihamlar açıq müstəviyə keçib. ABŞ prezidenti Donald Tramp və Ümumdünya Səhiyyə Təşkilatı arasında ciddi böhran yaşanmaqdadır. Məlum olduğu kimi, bir neçə gün əvvəl Amerika rəhbəri Ümumdünya Səhiyyə Təşkilatına maliyyə yardımını dayandırdığını açıqlayıb. Tramp epidemiyanın dünyada yayılmasında ÜST-nin ciddi məsuliyyət daşıdığını və bu baxımdan təşkilatın dünyanı yanıltdığını iddia edib. Təşkilatın Çinə calışdığını iddia edən Tramp orada nələrin baş verdiyini bildiyini söyləyib. Vaşinqtonun təşkilata 400-500 milyon dollar arasında yardım etdiyini ifadə edən Tramp Çinin yalnız 40 milyon dollar verdiyini açıqlayıb. Ağ Ev rəhbəri Ümumdünya Səhiyyə Təşkilatını sərt şəkildə tənqid edib, təşkilatı Çinin tərəfində durmaqda ittiham edib.

Bugünlərdə Donald Tramp və Fransanın dövlət başçısı Emmanuel Makron Ümumdünya Səhiyyə Təşkilatını islah etmək barədə razılığa gəlib. Göründüyü kimi, Tramp ÜST-ə qarşı özünə tərəfdaş toplamaqdadır. Ancaq Rusiya rəsmiləri quruma təzyiq edilməsini pisləyiblər. Bu baxımdan da ÜST-ə qarşı demarşın əsas qaynağının ABŞ olduğu üzə çıxır. Belə iddialar da var ki, ÜST-nin baş direktoru həkim deyil. İki siyasi partiyaya yaxın olan bir siyasətçidir. Onun milyarder Bill Qeytslə yaxın əlaqələrinin olduğu, milyarderin ÜST-nin büdcəsinə hər il 150 milyon dollar yardım etdiyi də məlumdur. Təşkilatın idarə heyətinin üzvləri arasında dərman istehsalı ilə məşğul olan keçmiş idarəçilər və hətta "evangelistlər"in olduğuna dair də fikirlər səslənir. Ehtimal olunur ki, bu, böyük güclər arasında gedən savaşdan doğan bir mənzərədir. Yəni maliyyə imkanları yetərincə olan ailələr və şəxslərin bu məsələdə fikirləri və mövqeləri haçalanır.

Onların bir qismi ÜST və Çinin tərəfindədir, digərləri isə Tramp və ABŞ-ın. Təxmin olunur ki, proseslər getdikcə daha ciddi hal alacaq. Rusiya bu məsələdə ÜST-ü və Çini müdafiə edirsə, deməli, ziddiyyət daha da dərinləşir. Hətta belə ehtimallar var ki, vəziyyət yeni sanksiyalara, Çinə qarşı maliyyə təzminatı həddinə qədər dəyişə bilər.

***Məhəmmədəli QƏRİBLİ***

**Bakı Apelyasiya Məhkəməsində İmişli Rayon İcra Hakimiyyətinin sabiq başçısı Vilyam Hacıyevin barəsində verilmiş həbs-qətimkan tədbirinin dəyişdirilməsi ilə bağlı şikayətə baxılıb. Hakim Namiq Məmmədovun sədrliyi ilə keçirilən prosesdə sabiq icra başçısının şikayəti təmin edilməyib və Səbail Rayon Məhkəməsinin qərarı dəyişdirilmədən saxlanılıb.**

# Həbs edilmiş beş icra başçısından tək Vilyam Hacıyev - sabiq məmur bu qədər faktla öz həbsi ilə niyə barışmır...

## Mehman Muradlı: "Belə adamın hüquqi müstəvidə həbsi ilə bağlı müqavimət göstərməsinin perspektivi də görünmür"



Hacıyev mayın 5-də DTX əməkdaşlarının keçirdiyi əməliyyat zamanı saxlanıb. Mayın 6-da Prezident İlham Əliyev onun İmişli Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilməsi barədə sərəncam imzalayıb. Mayın 6-da Səbail Rayon Məhkəməsində V. Hacıyev barəsində 4 ay müddətinə həbs-qətimkan tədbiri seçilib. Qeyd edək ki, V.Hacıyev icra hakimiyyətinin sərəncamında olan vəsaitlərin sosial yardım adı altında bir hissəsini ələ keçirməkdə, vəzifə səlahiyyətlərindən sui-istifadə və rüşvət almaqda şübhəli bilinir. Axtarış zamanı onun rayon icra hakimiyyətinin baş mühasibi Cəmil Musayev və başqaları vasitəsilə qəbul etdiyi pul vəsaitlərinin məbləğlərinə dair müxtəlif qeydlər, habelə ayrı-ayrı valyutalarda xüsusi qaydada qablaşdırılaraq saxlanılan pul vəsaitləri, iş üzrə əhəmiyyət kəsb edən digər sənədlər və maddi sübutlar aşkar edilib. Bəllidir ki, indiyə qədər 5 icra başçısı həbs edilib. Onların heç birindən aşkar edilən nağd pul Vilyam Hacıyevdəki məbləğdə olmayıb. Buna baxmayaraq, indiyədək həbs edilən sabiq icra başçılarından heç biri barəsində çıxarılan qərara etiraz etməyib. Təbiidir ki, məhkəmənin qərarından yuxarı instansiyaya şikayət etmək istənilən vətəndaşın hüququdur. Ancaq V. Haciyev evindən çıxan pul bağlamalarına, rüşvət alması ilə bağlı əməliyyat çəkilişinə rəğmən barəsində çıxarılan məhkəmə qərarına nümayişkəranə şəkildə etiraz edirsə, bu nəyin göstəricisi ola bilər?

Hüquqşunas Mehman Muradlı "Bakı-Xəbər"ə bildirdi ki, hər bir təqsirləndirilən şəxs barəsindəki qərarlardan şikayət verə bilər:"Bilirsiniz ki, bizim ölkədə hüququn aliliyi yüksək səviyyədə təmin edilir. Ölkəmizdə çoxpilləli məhkəmə iyerarxiyası mövcuddur. Heç bir qanunvericilik, hətta ən ağır cəza törətmiş şəxsə belə, yuxarı məhkəmə instansiyalarına şikayət etməyi qadağan etmir. Hətta bizim qanunvericiliyə görə, təqsirləndirilən şəxs mütləq vəkillə təmin olunmalıdır. Şəxsin buna maddi imkanı çatmırsa, ona dövlət hesabına vəkil tutulur. Bütün bunlar məsələnin hüquqi tərəfidir. Düşünürəm ki, istənilən peşəkar hüquqşunas mən deyəndən kənara çıxmaz. Çünki qanunvericiliyin tələbi hər şeydən üstündür. Vilyam Hacıyevlə bağlı məsələnin bir ictimai tərəfi də var. Bu həbslər bütün ölkənin diqqət mərkəzindədir. Hətta ölkə başçısı da bir neçə dəfə çıxışlarında məmur həbslərindən danışıb. Məmurların həbsi ilə bağlı nümayiş edilən əməliyyat çəkilişlərindən görünür ki, onlar açıq cinayət ediblər. Vilyam Hacıyevlə bağlı isə biz daha dəhşətli mənzərəni gördük. Onun evindəki pulların məbləği ilə bağlı hətta xarici media da təəccübünü gizlətmirdi.

Belə adamın hüquqi müstəvidə həbsi ilə bağlı müqavimət göstərməsinin perspektivi də görünmür. Hələlik istintaq yekunlaşmayıb. Vilyam Hacıyevlə bağlı verilən şikayətin məzmunu yalnız barəsində seçilən həbs-qətimkan tədbirinə etiraz ola bilər. Sabiq icra başçısının ittiaham olunduğu cinayət ağır sayılır. Bu baxımdan da, həmin maddələrin tələbinə görə, əksər hallarda təqsirləndirilən şəxslə bağlı həbs-qətimkan tədbiri seçilir. Prezident həmçinin çıxışlarından birində qeyd edir ki, həm həbsdə olanlar, həm bəzi özünü yığışdırmayan məmurlar heç kimə arxayın olmasınlar, çünki heç kimə belə şans verilməyəcək. Bu mənada, Vilyam Hacıyevin müqavimətinin ciddi dəyişikliklərə səbəb olamayacağı qənaətindəyəm".

***Məhəmmədəli QƏRİBLİ***

**Rusiyanın himayəsi ilə qurulan Avrasiya İqtisadi İttifaqında ciddi fikir ayrılıqları yaşanır. Bu problemlər təşkilatın sonuncu iclasında qabarıq şəkildə üzə çıxıb. Mayın 19-da keçirilən sammiti şərh edən Rusiya nəşrləri yazırlar ki, fikir ayrılıqlarının yarandığını Prezident Vladimir Putin da etiraf edib.**

# Avrasiya İB-nin son iclasında Paşinyanın məsxərələri - Rusiya mediası hücuma keçdi

## Elşən Manafov: "Paşinyanın Rusiya mediasında aşağılanması Kremlin maraqlarından irəli gəlir"



Bildirilir ki, bir tərəfdə Rusiya, Qazaxıstan və Qırğızıstan, digər tərəfdə Belarus və Ermənistan durur. Təşkilatın mayın 19-da keçirilən videotoplantısında Avrasiya İqtisadi İttifaqının 2025-ci ilə qədər inkişaf strategiyası layihəsi müzakirəyə çıxarılıb. Rusiya, Qazaxıstan və Qırğızıstan onu dəstəkləsələr də, Belarus və Ermənistan bu layihəyə qarşı çıxıblar. Əsas istəkləri də Rusiyanın onlara satdığı qazın qiymətinin aşağı salınmasıdır.

"Vestnik Kafkaza"nın əməkdaşı ilə söhbətində Milli Enerji Təhlükəsizliyi Fondunun aparıcı analitiki İqor Yuşkov bildirib ki, Paşinyan və Lukaşenkonun AİI-nin strategiyasının dalana dirənməsinə səbəb olmaları Rusiyaya qazın qiymətinə görə təzyiq göstərilməsi ilə bağlıdır: "Onlar qazın qiymətinin aşağı salınmasına çalışırlar. Ötən ay Ermənistan "Qazprom"a məktub ünvanlayaraq, Avropada qazın qiymətinin düşdüyünü əsas gətirərək, onlar üçün də qiymətin aşağı salınmasını istəyiblər. Belarus isə qazın daşınması formulunun dəyişməsini istəyir".

İ.Yuşkov bildirib ki, əvvəllər belə söhbətlər ortaya çıxmırdı, çünki Rusiya qazı Ermənistan və Belarus üçün əlverişli idi.

"Kommersant" isə sammitlə bağlı Ermənistan baş nazirini ələ salan material dərc edib. Yazıda Paşinyanı adi elementar videogörüntü qaydalarını bilməməkdə istehza ilə günahlandırıblar: "Əminəm ki, bu iradlar xırdadır və gələn dəfə biz erməni baş naziri tam şəkildə ekranda görə biləcəyik".

Bütövlükdə Rusiya mətbuatında Paşinyana yönəlik tənqidlər artıb. Son dövrlər isə artıq Rusiya KİV-i Paşinyanı açıq formada lağa qoyur. Bu da iki dövlət arasında ziddiyyətlərin daha da dərinləşməsindən xəbər verir.

Maraqlıdır, bəs ekspetlər bütün bunları necə dəyərləndirirlər?

Sözügedən məsələni "Bakı-Xəbər"ə şərh edən politoloq Elşən Manafov bütün bunlara bir neçə kontekstdən yanaşdı: "Paşinyan keçici bir fiqurdur. Rusiyanın Cənubi Qafqazda xüsusi maraqları var. Paşinyan hakimiyyətə gələndən sonra sərgilədiyi mövqe Kreml tərəfindən xoş qarşılanmadı. Rusiya zaman-zaman Paşinyana eyhamla başa salır ki, o istəsə belə, Ermənistanı Rusiyanın təsir dairəsindən çıxarmağa qadir siyasətçi deyil. Məlumdur ki, Azərbaycan torpaqlarının işğalı Putin iqtidarı ilə bağlı olmasa da, Rusiyanın köməyi ilə baş tutub. Dağlıq Qarabağdakı separatçı rejim də Rusiyanın MDB məkanındakı separatçı rejimlərə münasibəti kontekstində duruş gətirir. Aydın məsələdir ki, Ermənistan kimi müstəqil siyasəti, ciddi enerji resursları olmayan və əslində, Rusiyanın forpostu sayılan bir dövlətin bölgənin lider dövləti olan Azərbaycanla bu cür davranışı suallar doğurmaya bilməzdi. Digər tərəfdən, Rusiya KİV-ində kifayət qədər erməni əsilli jurnalist çalışır. Bu baxımdan, Rusiyanın ayrı-ayrı media orqanlarında Ermənistanın indiki iqtidarına münasibətdə sərgilənən mövqe, verilən yazılar təsadüfi deyil. Paşinyanın Rusiya mediasında aşağılanması Kremlin maraqlarından irəli gəlir.

*"Bununla ona öz yerini göstərirlər ki, cızığından çıxmasın"*

O, sadəcə, keçici bir fiqurdur. Bununla Paşinyana öz yerini göstərirlər ki, cızığından çıxmasın. Hansı ki, neçə vaxtdır Paşinyan buna əməl etmək istəmir. Ancaq Ermənistan istəsə belə, buna nail ola bilməyəcək. Çünki Ermənistan nə Gürcüstandır, nə də Ukrayna. Nə elə xüsusi coğrafi mövqeyi var, nə də təbii resursları. Ermənistanın AİI-də elə bir ciddi çəkiyə malik olan dövlət də deyil. Adıçəkilən ölkə dotasiya ilə yaşayır. Rusiya, sadəcə, bölgədə öz maraqları baxımından Ermənistandan bir rıçaq kimi istifadə edir. Bu baxımdan, Paşinyan nə qədər Qərbə doğru boylansa da, mövcud reallıqlar başqadır".

***Vidadi ORDAHALLI***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Bakı İrəvana son mesajlarını verir - münaqişənin hərbi yolla çözümü labüd görünür...

**Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı aparılan danışıqlarda Azərbaycanın mövqeyini gücləndirən əsas amillərdən biri də döyüş qabiliyyəti ilə regionda lider mövqedə olan ordumuzdur. Azərbaycan danışıqlar masasında da açıq şəkildə bildirir ki, konfliktin çözümündə istənilən nəticəni əldə etməsə, ordu amilini hərəkətə gətirəcək.**

Xüsusi vurğulanır ki, Azərbaycan beynəlxalq tanınmış sərhədləri çərçivəsində ərazi bütövlüyünün bərpasını bütün mümkün vasitələrlə təmin etmək hüququna malikdir.

Bu məqam düşmən tərəfdən də nəzərə alınır və aydındır ki, onun danışıqlarda mövqeyinə də birbaşa təsir edir. Digər tərəfdən Ermənistan onu da yaxşı başa düşür ki, danışıqlarda tədricən işğal siyasətinə son qoymağa razılıq verməsə, Azərbaycan güc variantından istifadə edəcək. Azərbaycan ordusunun genişmiqyaslı əməliyyat-taktiki təliminin keçirilməsi fonunda bu mövqeni bölüşən ermənilərin də sayı kifayət qədərdir. Erməni hərbi ekspert Levon Nazaryan da bildirir ki, böyük miqyasda hərbi təlim keçirən Azərbaycan hücum ssenarilərini məşq edir və bu da onun Qarabağ məsələsini hərbi müstəvidə çözmək niyyətindən geri çəkilmədiyini göstərir. "Baş verənlər artıq rəqibin müəyyən əməliyyatlara hazırlaşdığını güman etməyə imkan verir. Azərbaycan Silahlı Qüvvələrinin cəbhə xəttində aktivliyi, eləcə də daim keçirilən hərbi təlimlər təsadüfi deyil. Bakı niyyətini açıq ifadə edir". Elə rusiyalı ekspert Vitali Arkov da məsələyə bu prizmadan yanaşır. Ekspert vurğulayır ki, Azərbaycanın genişmiqyaslı hərbi təlimlərə başlaması Ermənistana mesajdır. Bakı İrəvanda isti başları soyutmağa, 2016-cı ilin aprelində baş verənləri xatırlatmağa çalışır. Onun sözlərinə görə, Ermənistan davranışları ilə müharibə vəziyyəti yaradır: "Ermənistanın indiki rəhbərliyinin hərəkətləri qeyri-adekvatdır və Dağlıq Qarabağ münaqişəsinin nizama salınmasında Azərbaycanı güc yoluna əl atmağa sövq edir. Ehtimal ki, belə ssenari son variant kimi həqiqətən mövcuddur. Biz görürük ki, baş nazir Nikol Paşinyan onillikləri boyunca davam edən prosesi kənara qoyub danışıqları sıfırdan başlamağı təklif edir. Əvvəlki il deyirdi ki, ona "Madrid prinsipləri" ilə tanış olmaq lazımdır, ikinci il bu haqda danışmağa başlayır. Bu, hər kəsi şüurlu şəkildə təhqir etməyə bənzəyir. Həmçinin, Rusiya xarici işlər naziri Sergey Lavrovun yalan danışdığını iddia edərək, bura Moskvanı da cəlb etməyə çalışır. Mən danışıqlar prosesində konkret sənəd üzərində müzakirələrin aparılması məsələsində Lavrova daha çox etibar edərdim, nəinki Paşinyana. Belə sənədin mövcudluğu haqda dəfələrlə eşitmişik, amma Paşinyan deyir ki, belə sənəd yoxdur. Ermənistan faktiki olaraq müharibəyə təhrik edir və Azərbaycan da hərbi təlimlərlə İrəvana mesaj verir". Arkov qeyd edib ki, 2016-cı ilin aprel müharibəsi Azərbaycan ordusunun döyüş hazırlığını və gücünü göstərdi: "Bütün reytinqlərdə, eləcə də ekspert fikirlərində bu öz əksini tapıb. Yeni erməni ordusu ilə müqayisədə Azərbaycan ordusu kifayət qədər güclüdür. Bu da müharibə zamanı qələbənin birmənalı şəkildə Azərbaycan tərəfində olacağı deməkdir. Bununla yanaşı, Ermənistanın Azərbaycanı təcavüzdə ittiham etmək üçün qəsdən təhrik etdiyini düşünürəm. Hesab edirəm ki, İrəvanın mövqeyi Azərbaycanı bezdirdi, amma Bakı daha səliqəli hərəkət edir, erməni oyununa təslim olmur və münaqişənin həlli üsullarını tapmağa çalışır". Arkov Ermənistanın regionda qeyri-sabitlik yaratmaq üçün təzyiq aləti olduğunu vurğulayıb:"Nikol Paşinyan qətiyyən müstəqil siyasətçi deyil, o, ABŞ-ın oyuncağıdır. Paşinyanın ətrafındakılarının çoxu Soros Fondundan gələnlərdir, bəziləri hətta rəsmən Mərkəzi Kəşfiyyat İdarəsində təlim keçib. Hesab edirəm ki, Paşinyanın Qarabağla bağlı zidd bəyanatları öz fikri deyil, ona verilən göstərişlərdir. Bununla yanaşı, İrəvan münaqişədə status-kvonu saxlamağa çalışır. Ermənistan Dağlıq Qarabağa nəzarət edir, buna paralel olaraq, ətraf 7 rayonu zəbt edib, halbuki, bu ərazilər qeyd-şərtsiz qaytarılmalıdır. Bu ərazilərin işğal edildiyini İrəvan özü də qəbul edir".

Ekspertin fikrincə, Paşinyanın ziddiyyətli bəyanatlarının daxili səbəbləri də var:"Onilliklər ərzində aparılan təbliğat nəticəsində Ermənistanda əhali Qarabağ ətrafında işğal edilmiş rayonları da öz əraziləri kimi qəbul etməyə başladı. Bu da istənilən ərazinin qaytarılmasının əhali tərəfindən neqativ qarşılanmasına səbəb ola bilər. Belə təbliğat dayandırılsa və əhali arasında münaqişənin nizama salınması nəticəsində sərhədlərin açılacağı, sosial-iqtisadi həyatın yaxşılaşacağı haqda fikirlər yayılsa, insanların mövqeyi də dəyişə bilər. Lakin biz görürük ki, Paşinyanın gəlişi ilə heç nə dəyişmədi. Rəsmi İrəvan əhalinin sülhə hazırlığı ilə bağlı təkliflərlə razılaşır, amma faktiki olaraq, bunun üçün heç nə etmir. Bir dəfə əsirlər dəyişdirildi, bir dəfə jurnalistlərin səfərləri təşkil olundu. Sonra heç nə etmədilər. Ermənistan hamını, hətta vasitəçiləri belə barmağına dolayır. Paşinyan sözdə başqa şey danışır, əməldə başqa şey edir. Onlar Azərbaycanı təcavüzkar tərəf kimi göstərmək istəyirlər, halbuki, məhz Ermənistan təcavüzkardır". Rusiyalı ekspert hesab edir ki, Ermənistanda xalq blokadadan çıxmaq, iqtisadi inkişafa nail olmaq istəyir:"Qızğın təbliğat aparılarsa, ermənilər Azərbaycanla dialoqa da hazır olar. Lakin yenə də Paşinyan üçün çətin olacağını hiss edirəm. Onlar anlayır ki, ilk növbədə Qarabağ ətrafındakı 7 rayonu Azərbaycana qaytarmalıdırlar. Bunu etmirlər, amma İrəvanın siyasətindən Ermənistan əhalisi əzab çəkir. Gec-tez bu rayonları qaytaracaqlar. Ermənistan daxilində Paşinyanın mövqeləri, çətin ki, uzun müddət sabit qalsın. Onun altındakı stul çoxdan laxlayır və sonu yaxınlaşır. Ermənistanda xalq çətin vəziyyətdədir. Bu ölkədə insanlar yoxsul idilər, amma məlum olur ki, zaman keçdikcə, onlar daha da kasıblaşır. Paşinyan xalqa iqtisadi inqilab sözünü verdi, amma edə bilmədi. Fikrimcə, Paşinyanın hakimiyyətdə uzun müddət qalması çətin görünür, Ermənistanın başqa rəhbərliyi isə Azərbaycanla dialoqa daha yaxın olacaq və Minsk Qrupunu aldatmayacaq". Əks təqdirdə Arkov Azərbaycanın güc amilindən istifadə edəcəyini bildirib. Onun sözlərinə görə, bu zaman Ermənistanın məğlubiyyəti qaçılmazdır.

Sabiq briqada komandiri, general-leytenant Yaşar Aydəmirov da qeyd edir ki, İrəvan baş verənləri nəzərə almalıdır. Onun fikrincə, ermənilər bilməlidir ki, ordumuzun keçirdiyi təlimlər həm də müharibənin ən böyük məşq hissəsidir:"Bundan o yana təlimlər olmur. İrimiqyaslı təlimlər Ali Baş Komandanın təsdiq etdiyi plana əsasən illik planlı təlimlərdir. Bu təlimin əsas məqsədi, sabah Ali Baş Komandan tərəfindən əmr verilərsə, Qarabağın işğaldan azad olunması üçündür. Baxmayaraq ki, pandemiya baş verib, amma ordumuz təlimlərdə iştirak edir. Bütün hərbi ekspertlər bu təlimləri izləyir. Ordumuzun hansı səviyyədə olduğunu öyrənirlər". Ehtiyatda olan polkovnik Şair Ramaldanov da məsələyə eyni prizmadan yanaşır. Naxçıvanda keçirilən təlimlər fonunda ekspert qeyd edir ki, Azərbaycan Naxçıvanda yerləşən ordu birləşmələrinin gücləndirilməsi, modernləşməsi və ən yeni silahlar ilə təkmilləşməsinə xüsusi diqqət yetirir: "Naxçıvan Muxtar Respublikasının bu gün Azərbaycanla quru sərhədi yoxdur. Lakin Naxçıvan Əlahiddə Birləşmələri də Azərbaycan Silahlı Qüvvələrinin bir parçasıdır. Ali Baş Komandan İlham Əliyevin son illərdə Naxçıvandakı ordu hissələrimizə xüsusi diqqət yetirməsi, təbii ki, ilk növbədə Ermənistanı narahat edir. Bunun başlıca səbəbi isə Naxçıvanın artıq mümkün bir müharibədə rahat hədəf deyil, Ermənistanın birbaşa özü üçün ciddi təhlükə olaraq görülməsidir. Faktiki olaraq Naxçıvan Əlahiddə Ümumqoşun hissələri Ermənistan üçün ciddi təhlükədir. Bu gün bir çox mütəxəssis etiraf edir ki, Azərbaycan mümkün müharibədə Ermənistan ordusunun hərəkətini yayındırmaq və Qarabağdakı hərbi birləşmələrlə əlaqəsini kəsmək üçün paytaxt İrəvanı belə hədəfə ala bilər. Yəni bu heç kəsə sirr deyil. Məhz bu səbəbdən Naxçıvandakı ordumuz xüsusi uzaqmənzilli reaktiv yaylım atəşi sistemləri ilə gücləndirilib. Məsələn, "Pələng" Türkiyə istehsalı olan 300 millimetrlik reaktiv yaylım atəşi sistemlərinin ən son versiyasıdır. Bu qurğuların maksimal uçuş məsafəsi 120 kilometrdir, 90 kilometr məsafədəki hədəfi dəqiqliklə vura bilir. Ermənistan ordusu dəfələrlə rəsmi və qeyri-rəsmi olaraq bildirib ki, müharibə başlanan zaman ilk hədəf Bakı ərazisində yerləşən neft buruqlarıdır. Lakin GPS sistemi ilə dəstəklənən "Pələng" sistemi faktiki olaraq Ermənistanın bu planını alt-üst edir. Çünki bu raket sistemləri ilə hazırda Naxçıvanda ordumuz Ermənistanın, paytaxt İrəvan da daxil olmaqla, istənilən nöqtəsini vurmaq imkanına malikdir. Raketin hədəfdən yayınma ehtimalı çox azdır". Polkovnik deyib ki, Naxçıvan Ermənistanın Qarabağda hərbi əməliyyatlar aparmaq imkanları üçün də böyük səddir:"Naxçıvandakı ordumuzun Günnüt istiqamətində hərbi əməliyyatlar aparması və müvəffəqiyyət əldə etməsi bu gün Ermənistan üçün başqa bir problem də yaradıb. Faktiki olaraq, Naxçıvandan Laçın koridoru və Qarabağın strateji nöqtələrinə nəzarət edilir. Bu isə Ermənistanın mümkün müharibədə əl-qolunu bağlayan faktdır".

Bütün bunlar döyüş səhnəsində də Ermənistanın kifayət qədər zəif durumda olduğunu göstərir. İndi danışıqlar prosesində Ermənistan işğal altındakı ərazilərin geri qaytarılmasına razılıq verməsə, güc faktoru işə salınacaq.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

**Ermənistanı bir dövlət kimi ərsəyə gətirən fə onun formal olsa da müstəqilliyini təmin edən Rusiyanın indi bu işğalçı ilə ciddi problemləri müşahidə edilməkdədir. İrəvan və Moskva arasında artan ziddiyyətlər fonunda Ermənistanda indi belə fikirlər səslənir ki, Kreml Ermənistana bundan sonra faşizm məsələsində də ciddi təzyiqlərə başlayacaq.**

# Kreml erməni faşizminə qarşı hərəkətə keçir - baba Paşinyan məsələsi ciddi katalizator rolunda...

Xüsusən də Ermənistanın indiki baş nazirinin babasının da faşistlərlə işbirliyində olması faktı bu xüsusda Kremlin əlində daha güclü arqumentlər formalaşdırır.

Ermənistanın "Qraparak" nəşri yazır ki, Moskva İrəvana qarşı son dövrlərdə gücləndirdiyi informasiya savaşında faşizm məsələsindən geniş şəkildə istifadə edəcək:"Bu günlərdə baş nazir Paşinyan babasının şəklini öz "Facebook" səhifəsində yerləşdirdi və belə yazdı: "Paşinyan Nikol Arakeli 1913-1943. 138-ci atıcı Diviziyanın 554-cü atıcı Alayında xidmət edib. Vətən uğrunda canından keçənlərə əbədi eşq olsun". Bundan dərhal sonra rus KİV-lərindən biri Rusiya Müdafiə Nazirliyinin İkinci Dünya müharibəsi zamanı itkin düşmüş və ölənlərin hamısının məlumatlarını özündə ehtiva edən Rusiya Müdafiə Nazirliyinin "Memorial" veb-saytından istifadə edərək Nikol Paşinyanın babasının 1943-cü ildə öldüyünü, sənədlərində isə "Düşmənlə əməkdaşlıq" yazıldığı barədə məlumat dərc etdi. Bunun ardından Yenoqavan kəndindən olan və atasının adı Vardan olan başqa bir Nikol Paşinyanla əlaqəli olduğu bildirilməklə, yayılan məlumat yenidən saxtalaşdırılaraq inkar edildi. Baş nazir Paşinyanın babası Nikol Arakeli Paşinyanın SSRİ ordusunda döyüşdüyü və naməlum şəraitdə itkin düşdüyü haqqında məlumat yayıldı. Media mənsublarının onu "Qaregin Njde legionunda vuruşan və nasist Almaniyasına dəstək verən" Nikol Vardanoviç Paşinyanla qarışdırdığı bildirildi. Saxta təkzib bütün erməni KİV-i tərəfində yayımlandı. Bir neçə gün sonra bir sıra Rusiya KİV-ləri, o cümlədən mk.ru, rosbalt.ru, gazeta.ru və başqaları məlumatı fəal şəkildə yaymağa davam etdilər. Narahat olmayın. Bu yalnız Rusiya ilə münasibətlərimizin rəzil vəziyyətdə olduğunu və yaxın gələcəkdə oxşar hadisələrin olacağından xəbər verir. Hələ ki, onlar bizə qarşı sadəcə informasiya müharibəsi aparırlar, sonra başqa müharibə formalarına keçəcəklər. Ermənistan və Ermənistan hökuməti anti-Rusiya siyasəti yürüdə bilir, Rusiya təşkilatlarına qarşı perspektivsiz cinayət işləri açmağa, şəxsi qisas hissindən irəli gələrək, günahlarını sübuta yetirmədən Rusiya prezidentinin və baş nazirinin dostlarını həbsdə saxlaya bilirlərsə, buna "cürətləri" çatırsa, elə suverendirlərsə, bu zərbələrə tab gətirməyi də bacarmalıdırlar. Eyni zamanda, ölkənin müqavimətini artırmaq və cəmiyyətin maraqlarına təhlükə yaratmamağı bacarmaq lazımdır. Əks təqdirdə, Paşinyanın şəxsi ambisiyalarının ölkəmizə və insanlarımıza çox ağır başa gəldiyi ortaya çıxır. Rusiya Ermənistanı faşizm kartı ilə də əzəcək". Erməni nəşrinin yazdığına görə, Kreml İrəvanı faşizm məsələsində əzməklə bütün rus cəmiyyətində Ermənistana qarşı tamam fərqli və mənfi müstəvidə formalaşmış əhval-ruhiyyə yarada bilər. Elə Rusiyanın "lenta.ru" portlaı da bildirir ki, Moskva faşizmin Ermənistanda tüğyan etməsinə susmamalıdır. Portal qeyd edir ki, baba Paşinyan faişistlərlə bir yerdə vuruşub:"Nəvə Paşinyan isə belə vəziyyətdə susur və danışmağa tələsmir ki, bu da açıq-aşkar onun xeyrinə deyil. Vermaxtın erməni legionu respublika tarixində kədərli səhifə olaraq qalmaqdadır. İlkin olaraq bu qruplaşmanın sayı 8 min nəfər təşkil edib, daha sonra 30 minədək artıb. Bölmənin əsas hissəsinə Qızıl ordunun düşmən tərəfinə keçən döyüşçüləri, bir qayda olaraq, hərbi əsirlər daxil idi. Legiona Drastamat Kanoyan (general Dro kimi məşhur olan) rəhbərlik edirdi, legionerlərin təlimləri isə SS-dən olan hərbi rəislərin nəzarəti altında keçirdi. Nasistlər erməniləri Almaniyanın qələbəsindən sonra Ermənistana müstəqillik vermək kimi vədlərlə legiona cəlb edirdilər. Paşinyanın babası da faşistlərlə bir yerdə olanlardan idi. Baş nazir Paşinyanın əcdadı ilə bağlı əhvalat erməni hakimiyyətinin digər hərəkətləri ilə də mənfi çalarlar kəsb edir. Bunun ən parlaq nümunələrindən biri Üçüncü Reyxlə əməkdaşlığı sübuta yetirilmiş Qaregin Njdenin abidəsi ilə bağlı insidentdir. 1940-cı ildən başlayaraq o, erməni batalyonlarının yaradılmasında Vermaxta kömək edib, daha sonra Berlində yaranmış erməni milli şurasına daxil olub. Nəticədə həbs edilib və ömrünü Vladimir həbsxanasında başa vurub. Əgər əvvəllər Njdenin abidələrinin qorunub saxlanmasına münasibətdə Paşinyanın mövqeyi sadəcə erməni əhalisinin ictimai rəyinə elementar hörmət hesab edilirdisə, indi baş nazirin babası ilə bağlı ziddiyyətli əhvalat fonunda bu mövqe başqa cür rəng alır. Baş nazir Njdeyə münasibətdə öz mövqeyi üçün müntəzəm olaraq tarixi arqumentlər tapırsa, o zaman niyə öz babasına yanaşmada ikimənalılığa yol verib? Axı, hökumət başçısının arxiv məlumatlarını sorğulamaq üçün bütün imkanları var. Onun tərəfindən rəsmi reaksiyanın olmaması getdikcə daha çox sual doğurur: bir tərəfdən inamsızlıq artır, digər tərəfdən də Paşinyanın susması Njdenin xatirəsinin əbədiləşdirilməsinə dair mövqeyinə etiraz etməmək cəhdi kimi görünür. Baş nazirin babasının əhvalatına düzəlişlə bağlı elə hökumətin digər hərəkətləri də bir qədər ayrı cür görünür. Məsələn, Ermənistanın "Mənim addımım" adlı hakim blokundan olan deputatlar Böyük Vətən müharibəsi veteranlarına aylıq fəxri ödənişlərin artırılması barədə qanun layihəsinin iclasın gündəliyinə salınmasından imtina ediblər. Mayın əvvəlində bu xəbər, demək olar ki, diqqətdən kənarda qalırdı, indi isə bu məsələni məhz nasizmin tərəfdarlarına münasibət kontekstində müzakirə etməyə başlayıblar". Portal onu da qeyd edir ki, Rusiya Ermənistanda faşizmə artan rəğbətə susqun qalmamalıdır.



Bütün bu qeyd edilənlər bir daha təsdiq edir ki, Rusiyada da Ermənistanda faşizmin tüğyan etməsinə susmaq niyyətində deyillər. Bu isə İrəvana baha başa gələcək məqamlardan biri olmaqla yanaşı, Ermənistanda faşizm sevgisinə növbəti ciddi zərbələrdən biri sayılır.

***Nahid SALAYEV***

# Prezident rüşvətlə sözdə yox, əməldə mübarizə getdiyini bir daha bəyan etdi - Həbs edilmiş başçıların yerinə təyinatlar...

**Prezident İlham Əliyev mayın 21-də Seymur Orucovu Ağstafa Rayon İcra Hakimiyyətinin, Elçin Rzayevi isə İmişli Rayon İcra Hakimiyyətinin başçısı vəzifələrinə təyin olunmaları ilə əlaqədar videoformatda qəbul edərkən deyib:**

- Sizə böyük etimad göstərilir. Siz bu etimadı öz işinizlə doğrultmalısınız.

Ağstafa və İmişli rayonlarının icra hakimiyyəti başçıları həbs olunub. Bu barədə ictimaiyyətə məlumat verilib. İndi istintaq gedir və hüquq-mühafizə orqanları hər şeyi müəyyən edəcək. Artıq ictimaiyyət məlumatlandırılıb. Ağstafa və İmişli rayonlarında icra hakimiyyəti başçıları tərəfindən edilmiş bu pozuntular digər rayonlarda da mövcud olub və bir neçə icra hakimiyyəti başçısı artıq istintaqa cəlb edilib. Bu bir daha onu göstərir ki, Azərbaycanda korrupsiyaya, rüşvətxorluğa, talançılığa qarşı mübarizə sözdə yox, əməldə aparılır və bu mübarizə bundan sonra da aparılacaq. İndi həm yerli, həm də mərkəzi icra orqanlarının fəaliyyəti araşdırılır və yol verilmiş bütün pozuntular üzə çıxacaq.

Azərbaycanda korrupsiyaya, rüşvətxorluğa qarşı mübarizə amansız aparılmalıdır. Bu məsələ ilə bağlı mən öz fikirlərimi bildirmişdim, bir daha demək istəyirəm ki, Azərbaycanın uğurlu inkişafı, ölkəmizin dayanıqlı inkişafı üçün xoşagəlməz hallara son qoyulmalıdır. Siz də rəhbərlik edəcəyiniz rayonlarda bütün xoşagəlməz hallara qarşı öz işinizlə ciddi mübarizə aparmalısınız. Korrupsiyanın, rüşvətxorluğun, talançılığın kökü kəsilməlidir. Bu sahədə sizin dövlət tərəfindən böyük dəstəyiniz olacaqdır, eyni zamanda, geniş ictimaiyyəti də bu işlərə cəlb edin. Çünki ictimai nəzarət xoşagəlməz hallara qarşı mübarizədə çox önəmli amildir. Mən şadam ki, son müddət ərzində ictimai nəzarət mexanizmləri təkmilləşir. Birinci növbədə siz vəziyyəti təhlil etməlisiniz və insanları narahat edən problemləri həll etməlisiniz. Sizin həll etməyə gücünüz çatmayan məsələlər barədə müvafiq mərkəzi icra orqanlarına məlumat verin ki, bu məsələlər operativ şəkildə öz həllini tapsın.

**"Bu gün Azərbaycan nadir ölkələrdəndir ki..."**

...O ki qaldı, infrastruktur layihələrinə, üç Dövlət Proqramının icrası nəticəsində infrastruktur layihələrinin böyük hissəsi öz həllini tapıb. Bunu indi hər kəs görür, bölgələrdə yaşayan insanlar görür və eyni zamanda, beynəlxalq təşkilatlar da bunu qeyd edir. Təsadüfi deyil ki, Davos Ümumdünya İqtisadi Forumunun hesabatında elektrik enerjisinin əlçatanlığına görə Azərbaycan dünyada 2-ci yerdədir. Yolların keyfiyyətinə görə 30-cu yerlərdədir. Bu gün Azərbaycan nadir ölkələrdəndir ki, demək olar, qazlaşdırma layihələrinin böyük əksəriyyəti başa çatıb, qazlaşdırmanın səviyyəsi 96 faizdir. İçməli su layihələri bütün şəhərlərdə icra edilir, ya artıq başa çatıb, ya da ki, başa çatmaq üzrədir. Bütün bunlar dövlət tərəfindən görülmüş işlər, qoyulan investisiyalardır. Ona görə infrastruktur layihələrinin əsas hissəsi öz həllini tapıb. Ona görə sizin əsas vəzifəniz ondan ibarət olmalıdır ki, artıq bu möhkəm təməl üzərində öz işinizlə rayonların sosial-iqtisadi inkişafını təmin edəsiniz. Eyni zamanda, bütün işlər ədalətli görülməlidir. Ədalət sizin işinizdə əsas prinsip olmalıdır və indiki şəraitdə, pandemiya dövründə insanlara daha çox yardım, kömək göstərilməlidir. Yerlərdə, ilk növbədə, bunu icra başçıları, icra strukturları etməlidirlər.

Əlbəttə, Azərbaycan dövləti bütün lazımi tədbirləri görür. Azərbaycanda pandemiya ilə əlaqədar tətbiq olunan mexanizm hesab edirəm ki, ən yüksək qiymətə layiqdir. Biz yüz minlərlə insanın sosial vəziyyətinin pisləşməsini nəzərə alaraq, onlara yardım insanları bu ağır vəziyyətdə ruhlandırır, eyni zamanda, onların maddi imkanlarının təmin edilməsində rol oynayır. Biz bunu edirik ki, insanlar bu vəziyyətdən çıxsın və az itkilərlə çıxsınlar. İlk növbədə, koronavirusla bağlı mübarizədə görülmüş işlər yüksək qiymətə layiqdir. Eyni zamanda, koronavirusa görə işini itirən, yaxud da ki, müvəqqəti olaraq itirən insanların da yardımına dövlət gəlməlidir. Ona görə dövlət hər zaman bu işlərdə aparıcı rolunu oynayacaq və siz də yerlərdə Azərbaycan dövlətinin nümayəndələrisiniz. Ona görə sizin işinizdən, eyni zamanda, ümumiyyətlə, Azərbaycanda görülən işlər haqqında da təsəvvür yaranır. Əgər icra hakimiyyəti başçısı öz vəzifə borcunu yerinə yetirmirsə, əksinə, insanları incidir, insanların əmlakına göz dikir, kimsəsiz insanlara çatacaq yardımı, ictimai işlərə cəlb edilmiş insanların ödəniş kartlarını oğurlayır, talançılıqla, rüşvətxorluqla, korrupsiya ilə məşğul olursa, onda insanlar hansı fikirdə ola bilərlər? Siz işdə də, məişətdə də nümunə göstərməlisiniz və elə işləməlisiniz ki, insanlar sizdən razı olsunlar. İnsanlar sizdən razı olsalar, mən də sizin işinizdən razı olacağam. Ona görə vəziyyəti dərindən təhlil edin, həllini gözləyən məsələləri həll etmək üçün səylər göstərin və gücünüz çatmayan işlərin həll edilməsi üçün Prezident Administrasiyasına, Nazirlər Kabinetinə, müvafiq dövlət orqanlarına müraciət edin.

**"...bəzi məmurlar sahibkarların gəlirlərinə göz dikirlər"**

İndiki şəraitdə ölkəmizin uğurlu inkişafı, ilk növbədə, qeyri-neft sektorunun hesabına təmin ediləcək və əlbəttə ki, sahibkarlığın inkişafı daha böyük əhəmiyyət daşıyır. Biz bu işlərlə çox uğurla məşğul oluruq və bu gün Azərbaycanda çox böyük sahibkarlıq sinfi formalaşıb. Ancaq bəzi hallarda sahibkarlar çətinliklərlə üzləşirlər. Hansısa layihəni icra etmək, hansısa investisiyanı qoymaq istəyəndə məmurlar tərəfindən problemlərlə üzləşirlər. Bəzi məmurlar onların layihələrinə şərik çıxmaq istəyirlər, bəzi məmurlar onların gəlirlərinə göz dikirlər. Buna qətiyyən yol vermək olmaz. Əksinə, siz sahibkarları cəlb etməlisiniz, siz onları inandırmalısınız. İndi dünyada investisiyalar uğrunda mübarizə aparılır. Ölkələr öz təkliflərini irəli sürürlər ki, investorları cəlb etsinlər. Ona görə siz, ilk növbədə, yerli sahibkarları inandırmalısınız ki, onlar gəlib məhz sizin rayonlarınıza sərmayə qoysunlar, iş yerləri yaratsınlar və beləliklə rayonların inkişafına töhfə versinlər. Amma bəzi hallarda sahibkar iş görmək istəyir, ona min cür əziyyət verilir. Buna yol vermək olmaz.



Kənd təsərrüfatının inkişafı bizim üçün prioritet sahə olaraq qalır. İndiki şəraitdə kənd təsərrüfatının müasir üsullarla inkişafı ilə əlaqədar çox geniş proqramlar icra edilir. Bu sahədə də yerli icra orqanlarından çox şey asılıdır. Ona görə, müvafiq dövlət qurumları ilə birlikdə kənd təsərrüfatının inkişafı ilə bağlı işlər görülməlidir, insanlar işlə təmin edilməlidir, məhsuldarlıq artmalıdır və kənd təsərrüfatının inkişafını şərtləndirən bütün amillər təmin edilməlidir, o cümlədən suvarma suyunun ədalətli bölüşdürülməsi məsələsi.

*(Ardı 9-cu səh.)*

*(Əvvəli 8-ci səh.)*

Bu sahədə də böyük pozuntular var, yerlərdən mənə şikayətlər gəlir. Keçən il də quraqlıq olub, bu il də quraqlıqdır və biz sudan böyük qənaətlə istifadə etməliyik. Bütün bu işləri düzgün təhlil etmək və tədbirlər planı hazırlamaq üçün mənim Sərəncamımla xüsusi komissiya yaradılıb və artıq komissiyanın ilkin araşdırmaları mənə təqdim edilib. Biz bunu demək olar ki, təxmin edirdik, bəzi hallarda itkilər 40-50 faiz səviyyəsindədir. Bu, dözülməzdir. Belə israfçılıq böyük problemlərə gətirib çıxarır. Ona görə siz bu sahədə bütün vəziyyəti təhlil edin. Əlbəttə, mərkəzi icra orqanları bu məsələ ilə məşğuldurlar və komissiyanın tərkibində nazirlər təmsil olunur. Amma yerlərdə siz bu işlərə ciddi fikir verin, təftiş aparın və məlumat verin. Çünki biz əgər ancaq bu itkiləri azaltsaq, kənd təsərrüfatında daha böyük irəliləyişə nail ola bilərik. Eyni zamanda, suyun ədalətli bölüşdürülməsi məsələsi də çox aktualdır. Çünki mənə verilən məlumatlara görə, bəzi hallarda icra başçılarına yaxın olan sahibkarlara su verilir, ancaq kənar adamlara su verilmir. Bu ədalətsizlikdir və buna son qoyulmalıdır.

Ödənişli ictimai iş yerlərinin yaradılması artıq bir neçə ildir ki, təmin edilir və biz bu kateqoriyaya aid olan insanların sayını ildən-ilə artırırıq. Biz 30 mindən başlamışıq. Bu il mənim göstərişimlə 90 min ödənişli ictimai iş yeri yaradılmalıdır və bu istiqamətdə artıq nəticələr vardır. Ancaq əfsuslar olsun ki, bəzi icra başçılarının cinayətkar əməllərinə görə bu sahə də ən korrupsiyalaşmış və ən çirkin sahəyə çevrilib. O işlərə cəlb edilən insanların ödəniş kartları icra başçıları tərəfindən oğurlanırdı. Həbs olunmuş bütün icra başçılarının iş otaqlarından və onların yaxınlarının iş otaqlarından yüzlərlə ödəniş kartı çıxır. Bu pul kasıb, özünə iş tapa bilməyən insanlara çatmalıdır. Xüsusilə pandemiya dövründə bütün ölkələrdə iş yerləri ixtisar edilir, bütün ölkələrdə işsizlik artır, o cümlədən Azərbaycanda. Belə bir vəziyyətdə kasıb insanın puluna göz dikmək vicdansızlıqdır və cinayətdir. Ona görə bu gün Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə tapşırıq verilib ki, onlar ümumi nəzarət və eyni zamanda, monitorinq aparsınlar. Siz də rəhbərlik edəcəyiniz rayonlarda bu işləri ciddi təhlil edin, görün nə qədər insan cinayətkar icra başçıları tərəfindən bu imkandan məhrum edilib. Biz bu ədaləti bərpa etməliyik.

**"...həm tikintidə pul oğurlanır, həm də mənzillər rüşvət müqabilində paylanılır"**

Bir sözlə, sizin fəaliyyətiniz rəhbərlik edəcəyiniz rayonların sosial-iqtisadi inkişafında özünü göstərməlidir. Çünki açıq demək istəyirəm, təxminən son 17 il ərzində bölgələrdə görülmüş işlərin ən azı 90 faizi mənim təşəbbüsümlə görülüb, dövlət proqramları çərçivəsində görülüb, 16 min kilometr avtomobil yolu çəkilib, bütün elektrik təsərrüfatı demək olar ki, yenidən qurulub. Biz qazlaşdırmanı təxminən 100 faizə çatdırmışıq, 3500-dən çox məktəb, 700-dən çox tibb ocağı, 50-yə yaxın Olimpiya İdman Mərkəzi, nə qədər Gənclər evləri, mədəniyyət sarayları, digər sosial obyektlər tikilib. Bütün bunları biz mənim bilavasitə göstərişimlə dövlət büdcəsi hesabına etmişik. İndi baxaq görək icra başçıları nə iş görüblər, hansı daşı daş üstünə qoyublar. İndi bütün bu işlər təftiş edilir. Mənim ayırdığım vəsait hesabına tikilmiş evlər, yəni qəzalı evlərin əvəzinə tikilmiş evlərin tikintisində də oğurluq baş verir, həm tikintidə, həm də ki, ondan sonra mənzillərin bölüşdürülməsində. Bu evlərin insanlara tamamilə pulsuz verilməsi nəzərdə tutulubdur. Amma həm tikintidə pul oğurlanır, həm də mənzillər rüşvət müqabilində paylanılır. Deməli insanlardan pul qopardılır. İndi təftiş aparılır və bütün bu pozuntularda əli olan vəzifəli şəxslər məsuliyyətə cəlb ediləcək. İcra başçısı ona göstərilən etimadı öz işi ilə doğrultmalıdır.

**"Elə işləməlisiniz ki..."**

Bölgələrdə gedən işlər daim mənim nəzarətimdədir. Mənim çoxsaylı səfərlərim, eyni zamanda, o məqsədi güdür ki, görülmüş işlərin icrasını görüm, tanış olum və insanları narahat edən problemləri insanlardan eşidim və biz bunları həll edək. Amma deyə bilərəm ki, bir çox hallarda icra hakimiyyəti başçısı öz iş otağından çıxmır. Bütün icra hakimiyyəti başçıları, o cümlədən siz bütün kəndlərdə insanlarla görüşməli, insanları narahat edən problemləri insanların dilindən eşitməli və ondan sonra qərar qəbul etməlisiniz. Elə məsələ var ki, sadəcə olaraq, laqeydlik, biganəlik və məsuliyyətsizlik ucbatından həll olunmur. Elə məsələ var ki, heç böyük vəsait, böyük əziyyət tələb etmir. Sadəcə, onların vecinə deyil. Onlar hesab edirlər ki, orada ağa kimi rəhbərlik etməlidirlər, insanları incitməlidirlər, öz şəxsi maraqlarını təmin etməlidirlər. Belə təfəkkürlə yaşayan insanların bizim aramızda yeri yoxdur. Onların yeri başqa yerdədir. Ona görə, siz bütün kəndlərdə olmalısınız, bütün problemləri vətəndaşlardan öyrənməlisiniz və onları həll etməlisiniz. Bir daha demək istəyirəm ki, yerli səviyyədə həlli mümkün olmayan problemlər dərhal müvafiq mərkəzi icra orqanlarına çatdırılmalıdır.

Bu gün Azərbaycan yeniləşir, müasirləşir və yeni kadrlardan çox şey asılıdır. Sizin fəaliyyətinizdən çox şey asılıdır və insanların inamı, əhval-ruhiyyəsi, ədalətə inanması bir çox hallarda yerli rəhbərlərin işindən asılıdır. Siz elə işləməlisiniz ki, insanlar sizə inansınlar, sizi dəstəkləsinlər və sizin işinizdən razı olsunlar.

Bunu da bilməlisiniz ki, sizin fəaliyyətinizə diqqət göstəriləcək, nəzarət olunacaq. Elə işləməlisiniz ki, mənim tərəfimdən verilən bütün tapşırıqlar yerinə yetirilsin, Ağstafa və İmişli rayonlarının uğurlu inkişafı təmin edilsin.

Elçin Rzayev və Seymur Orucov göstərdiyi böyük etimada görə Prezidentə təşəkkür edib, bu etimaddan irəli gələn məsuliyyəti dərk etdiklərini və dövlətə bağlı vəzifələrin həyata keçirilməsində yorulmadan çalışacaqlarını bildiriblər.

# Paşinyanın Gürcüstan Baş naziri ilə müqayisəsi - erməni mediası bu dəfə "öldürücü dəqiqliklə" vurdu...

**Ermənistanın elektron nəşrləri ölkəsinin Baş nazirini Gürcüstan hökumətinin başçısı ilə müqayisə edib. Ölkə mediası Nikol Paşinyanın tərcümeyi-halını lağa qoyur. Sözügedən məsələ ilə bağlı konkret olaraq Ermənistanın "Politik.am" nəşri yazır ki, Georgi Qaxariyanın peşəsi tarixçidir, Tiflis Dövlət Universitetini bitirib və Moskva Dövlət Universitetində Siyasi Elm və Moskva Dövlət Universitetində biznes məktəbi ixtisası üzrə təhsilini davam etdirir.**



Müxtəlif şirkətlərdə yaxşı vəzifələr tutub, Gürcüstanın Daxili İşlər naziri, bundan əvvəl Gürcüstanın Biznes üzrə komissarı, Gürcüstan Hökumətinin İqtisadi Şurasının həmsədri olub və Gürcüstanın İqtisadiyyat Nazirliyinə rəhbərlik edib.

Sayt yazır ki, bu, olduqca ruhlandırıcı tərcümeyi-haldır. Yeri gəlmişkən, Qaxariya olduqca sərt bir siyasi xəttin tərəfdarıdır: "İndi gəlin Ermənistanın hazırkı Baş naziri Nikol Paşinyanın tərcümeyi-halına baxaq. Jurnalist Nikol Paşinyanın tam ali təhsili yoxdur. Bir neçə erməni mediasında işləmiş, sonra "Haykakan Jamanak"a rəhbərlik edib. Parlamentin üzvü olanda müxalif bir deputat kimi, təbii ki, ritorika və populizm nümayiş etdirdi, lakin Baş nazir olaraq, xüsusilə pandemiya dövründə hakimiyyətin öhdəsindən gələ bilmədiyini göstərdi. Qaxariya və Paşinyanın tərcümeyi-halı Ermənistanın Baş nazirinin uğursuz olmasının səbəbini açıq şəkildə göstərir. Paşinyan dövlət maşınını necə idarə edəcəyini bilmir, ciddi peşəkar bacarıqları yoxdur və özünə o qədər arxayındır ki, ətrafına düzgün yolu göstərəcək mütəxəssislər toplaya bilmir. Ona görə ən vacib vəzifəyə təyin etməzdən əvvəl insanın tərcümeyi-halını və təcrübəsini bilmək çox vacibdir".

## *Vüqar Rəhimzadə: "Ciddi ali təhsili, dövlət idarəçiliyi təcrübəsi olmayan bir şəxsin uğurlu rəhbərliyindən söhbət gedə bilməz"*

Paşinyanın ötən iki ildə uğursuz idarəçiliyi o həddə gətirib çıxarıb ki, Ermənistanın bir sıra nəşrləri onun bacarıqsız bir rəhbər olduğunu həm də Baş nazirin bəsid tərcümeyi-halı ilə əlaqələndirirlər. Təbii ki, belə keçmişi olan siyasətçidən uğurlu dövlət başçısı ola bilməz.

## *"Artıq boş vədlər Ermənistan cəmiyyətini qane etmir"*

Məsələyə münasibət bildirən "İki Sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadənin sözlərinə görə, artıq erməni cəmiyyəti Paşinyanın uğursuz bir dövlət başçısı olmasının fərqindədir: "Aydın məsələdir ki, ciddi ali təhsili, dövlət idarəçiliyi təcrübəsi olmayan bir şəxsin uğurlu rəhbərliyindən söhbət gedə bilməz. Gürcüstan da Ermənistan kimi təbii resurslara malik deyil. Bu ölkələr arasında əsas fərq ondan ibarətdir ki, Gürcüstanın açıq dənizə çıxışı var. Ancaq Gürcüstanda idarəçilik daha yaxşı qurulduğuna görə bu ölkənin uğurları göz qabağındadır. Təbii ki, burada söhbət qonşu ölkənin Ermənistanla müqayisəsindən gedir. Paşinyan bacarıqlı siyasətçi olsaydı, o zaman Ermənistanın inkişafını təmin edə bilərdi. Ötən iki il bir sıra işlərin yoluna qoyulması üçün heç də kiçik müddət deyil. Ancaq məsələ ondadır ki, Paşinyan təcrübəsiz və naşı bir fiqurdur. O, sadəcə, emosional xarakterinə uyğun olaraq, populist vədlərlə çıxış edir. Onun beynəlxalq hüquq sistemindən, iqtisadiyyatdan anlayışı yoxdur. Bu baxımdan erməni mediasının sözügedən müqayisəsi reallığı əks etdirir. Artıq boş vədlər Ermənistan cəmiyyətini qane etmir".

***Vidadi ORDAHALLI***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Dağlıq Qarabağı Azərbaycan ərazisi kimi təsdiqləyən beynəlxalq sənədlər...

**Məlum olduğu kimi, bütün beynəlxalq qurumlar, o cümlədən də müxtəlif dövlətlər, həmçinin də ayrı-ayrı dünyamiqyaslı tədbirlərdə, görüşlərdə qəbul edilən sənədlər, qəbul edilən bəyanatlar Dağlıq Qarabağın Azərbaycanın ayrılmaz tərkib hissəsi olduğunu təsdiqləyib.**

## II yazı

Həmin qurumlar, həmçinin, bəyan ediblər ki, Ermənistan öz işğalçılıq siyasətindən əl çəkməli və qəsb etdiyi Azərbaycan torpaqlarını qeyd-şərtsiz boşaltmalıdır. Lakin Ermənistan bu sənədlərə, bəyanatlara məhəl qoymayıb və öz işğalçılıq siyasətini davam etdirir. Bu azmış kimi, qondarma rejimdə "prezident seçkiləri" şousu da düzənləyir.

Qeyd edək ki, Avropa İttifaqının Ermənistandakı nümayəndəliyinin rəhbəri, səfir Andrea Viktorin Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinin Avropa İttifaqı üçün prioritet olaraq qaldığını deyib. Diplomat, həmçinin, xatırladıb ki, Avropa İttifaqına üzv olan ölkələr Dağlıq Qarabağı "müstəqil dövlət" kimi tanımır. Buna görə də Aİ orada mövcud ola bilməz. "Avropa İttifaqı sülh prosesini və tərəflər arasındakı təmasları dəstəkləməkdə davam edir", - deyə diplomat qeyd edib.

Məlum olduğu kimi, 1993-cü ildən bu yana Dağlıq Qarabağın Azərbaycanın ayrılmaz tərkib hissəsi olduğunu təsdiqləyən sənədlərin sayı çoxdur.

Ekspertlər bildirirlər ki, Ermənistan-Azərbaycan münaqişəsinin həllinə dair vasitəçilik prosesi 1992-ci ilin fevral ayında Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsi (ATƏM) çərçivəsində başlayıb. ATƏM-in Xarici İşlər Nazirləri Şurasının Helsinkidə keçirilən 24 mart 1992-ci il tarixli əlavə iclasında Minskdə ATƏM-in himayəsi altında mümkün qədər tez bir zaman ərzində böhranın ATƏM-in prinsip, öhdəlik və müddəaları əsasında sülh yolu ilə həlli istiqamətində danışıqlar üçün forumu təmin edəcək Dağlıq Qarabağa dair konfransın çağırılması qərara alındı.

12 may 1994-cü il tarixində atəşkəsə dair razılıq əldə olundu. ATƏM-in dövlət və hökumət başçılarının 1994-cü il 5-6 dekabr tarixlərində Budapeştdə keçirilən sammitində ATƏM çərçivəsində bütün vasitəçilik səylərinin əlaqələndirilməsi üçün Minsk konfransı həmsədrlik institutunun yaradılması barədə qərar qəbul olundu. Budapeşt sammiti ATƏM-in fəaliyyətdə olan sədrinə silahlı münaqişənin dayandırılması üçün siyasi razılaşmanın əldə olunması məqsədilə danışıqlar aparmaq tapşırığı verdi. Sözügedən siyasi razılaşma münaqişənin nəticələrini aradan qaldırmalı və Minsk konfransının çağırılmasına imkan verməli idi.

23 mart 1995-ci ildə ATƏT-in fəaliyyətdə olan sədri Minsk prosesinin həmsədrlərinə mandat verdi. 2-3 dekabr 1996-cı il tarixlərində keçirilən ATƏT-in Lissabon sammitində ATƏT-in Minsk Qrupunun həmsədrləri və ATƏT-in fəaliyyətdə olan sədri Dağlıq Qarabağ münaqişəsinin həllinin əsasını təşkil etməli olan prinsipləri tövsiyə etdi, lakin Ermənistan bu prinsipləri qəbul etmədi və ATƏT-in 54 üzv dövləti arasında bu təklifin əleyhinə səs verən yeganə dövlət oldu.

Azərbaycan tərəfi regionda davamlı sülh, təhlükəsizlik və əməkdaşlıq mühitinin bərqərar olmasına şərait yaradacaq Ermənistan-Azərbaycan münaqişəsinin ədalətli həlli istiqamətində dünya birliyinin daha qətiyyətli və ardıcıl mövqedən çıxış etməsi və Ermənistanı beynəlxalq birliyin nüfuzlu üzvləri olan ATƏT-in Minsk Qrupunun həmsədr ölkələrinin təklif etdiyi başlıca prinsiplər əsasında münaqişənin birdəfəlik həllini nəzərdə tutan yekun sülh sazişi üzərində işə başlamasına vadar etməsinə ümid bəsləyir.

Bir çox beynəlxalq təşkilat münaqişənin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həlli ilə bağlı çoxsaylı sənəd qəbul edib.

BMT Baş Assambleyasının 2008-ci il martın 14-də qəbul etdiyi qətnamə münaqişənin hüquqi, siyasi və humanitar aspektlərini əhatə edir və həlli prinsiplərini yenidən təsdiqləyir. Bu prinsiplər Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə hörməti, erməni qoşunlarının Azərbaycanın işğal edilmiş ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını, işğal edilmiş ərazilərdən məcburi köçkün düşmüş insanların öz doğma yurdlarına qayıtmaq hüququnu, hər iki icmanın Azərbaycanın tərkibində muxtar idarəetmə formasına malik ərazidə birgəyaşayış şərtlərinin təmin edilməsini və ərazilərin işğalı nəticəsində yaradılmış vəziyyətin qanunsuzluğunu vurğulayır.

Münaqişə İslam Əməkdaşlıq Təşkilatı (İƏT) çərçivəsində də dəfələrlə müzakirə edilib. Təşkilat beynəlxalq hüququn prinsip və normalarını rəhbər tutaraq, Azərbaycanın hərbi təcavüzə məruz qaldığını elan edib. Hələ 1993-cü ildə təşkilatın xarici işlər nazirlərinin Pakistanın Karaçi şəhərində keçirilən 21-ci iclasında qəbul edilən qətnamə Azərbaycana qarşı erməni təcavüzünü qınayır, erməni qoşunlarının işğal edilmiş bütün ərazilərdən dərhal çıxarılmasını tələb edir, Ermənistanı Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə hörmət etməyə və münaqişənin dövlətlərin ərazi bütövlüyünə, sərhədlərin toxunulmazlığına əsaslanan sülh yolu ilə, ədalətli həllinə çağırır. Növbəti qətnamələrdə təşkilat BMT Təhlükəsizlik Şurasını münaqişənin siyasi həlli prosesində fəal iştirak etməyə, qəbul olunmuş dörd qətnamənin icrasını tam təmin etməyə və Azərbaycan Respublikasına qarşı təcavüz aktının mövcudluğunu tanımağa çağırır.

2016-cı ildə İƏT-in İstanbulda keçirilən sammitində İƏT çərçivəsində "Ermənistan Respublikasının Azərbaycana təcavüzünə dair Təmas Qrupu" yaradılıb. Təmas Qrupunun tərkibinə 7 ölkə daxildir: Türkiyə, Səudiyyə Ərəbistanı, Pakistan, Malayziya, Mərakeş, Cibuti, Qambiya.

Avropa İttifaqı BMT Təhlükəsizlik Şurasının qətnamələrinin yerinə yetirilməsinə, Ermənistan qoşunlarının işğal edilmiş ərazilərdən çıxarılmasına, tərəflərin ərazi bütövlüyünə, beynəlxalq sərhədlərinə hörmət göstərilməsinə və heç bir beynəlxalq legitimliyi olmayan, güc yolu ilə yaradılmış vəziyyətdən imtina edilməsinə çağırır.

2017-ci il noyabrın 24-də Brüsseldə keçirilən "Şərq Tərəfdaşlığı" sammitində qəbul edilən birgə bəyannamədə Avropa İttifaqı bütün tərəfdaşların ərazi bütövlüyünü, suverenliyini və müstəqilliyini dəstəkləməklə bu məsələdə qərarlı olduğunu nümayiş etdirib.

2016-cı ilin əvvəlində münaqişənin həlli ilə əlaqədar konkret planlar müzakirə olunduğu vaxtda Ermənistan hərbi təxribata əl ataraq, aprelin 2-də qoşunların təmas xətti boyunca əhalinin sıx məskunlaşdığı əraziləri ağır silahlardan atəşə tutub. Ermənistanın hücumları nəticəsində dinc Azərbaycan əhalisi arasında uşaqlar da daxil olmaqla 6 nəfər həlak olub, 33 nəfər isə ağır yaralanıb. Öz növbəsində, Azərbaycan Silahlı Qüvvələri düşmənə layiqli cavab verib, əks-həmlə nəticəsində strateji əhəmiyyətli mövqeləri işğaldan azad edib. Aprel hadisələrindən sonra Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndi ətrafındakı yüksəkliklər erməni işğalından tamamilə azad olunub. Cocuq Mərcanlı kəndinin bərpası ilə bağlı tədbirlər haqqında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq sərəncamları əsasında böyük bərpa və quruculuq işləri görülüb, kənddə normal həyat bərpa olunub.

Ermənistan siyasi və hərbi təxribatlarını 2017-ci ildə də davam etdirib. Ermənistan hərbi hissələri ağır artilleriya qurğularından Azərbaycan Silahlı Qüvvələrinin cəbhəboyu mövqelərini və mülki əhalinin yaşadığı əraziləri intensiv atəşə tutub. Nəticədə iyulun 4-də Füzuli rayonunun Alxanlı kəndində 2 mülki şəxs qətlə yetirilib, bir nəfər isə ağır yaralanıb.

Azərbaycanın bütün sülhsevər səylərinə baxmayaraq, Ermənistan destruktiv siyasəti ilə problemin mərhələli şəkildə tənzimlənməsinə mane olur, siyasi və hərbi təxribatlar vasitəsilə danışıqlar prosesini pozmağa çalışır və Azərbaycan ərazilərinin işğalına əsaslanan mövcud status-kvonu qorumağa çalışır. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi Azərbaycanın beynəlxalq sərhədləri və ərazi bütövlüyü çərçivəsində həll edilməlidir. Hazırda dünya birliyi Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü birmənalı şəkildə tanıyır və dəstəkləyir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açıq bəyan edib ki, "Azərbaycanın ərazi bütövlüyü danışıqların mövzusu deyil və heç vaxt olmayacaq... Azərbaycan bu mövqedən bir addım belə geri çəkilməyəcək. Yəni Azərbaycanın ərazi bütövlüyü məsələsində heç bir güzəşt olmayacaq".

Ortada bu qədər rəsmi sənəd, bəyanatlar olduğu halda, Ermənistan tutduğu zərərli və təhlükəli, işğalçılıq mövqeyindən əl çəkmir, daha doğrusu, əl çəkmək istəmir.

*İradə SARIYEVA*

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

**Son günlərdə Rusiya ilə Qərb ölkələri arasında qaz məsələsi ilə bağlı yenidən ziddiyyətlərin baş qaldırması müşahidə olunur. Bu durumda diqqət cəlb edən proseslərdən biri də Rusiyanın məhşur "Şimal axını" və "Şimal axını-2" qaz kəmərləri ilə bağlıdır.**

# Azərbaycan Avropa qaz bazarında Rusiyanın da xilaskarına çevrilir...

Xatırladaq ki, hər iki kəmərin illik ötürücülük gücü 55 milyard kubmetrdir. Birinci çoxdan fəaliyyət göstərsə də, ikincinin inşası davam edir. Amma inşaat prosesi indi müxtəlif əngəllərlə üzləşir. Məsələn, artıq məlumdur ki, "Şimal axını-2" qaz kəmərinə Avropa Birliyinin direktivləri ilə məhdudlaşdırmalar gətirilir. Almaniyanın Federal Şəbəkə Agentliyi Avropa Birliyinin göstərişlərinə müvafiq olaraq bu xüsusda Rusiyanın istəklərindən uzaq qərar qəbul edib. Məsələ burasındadır ki, "Şimal axını-2"nin planlaşdırılması, tikintisi və istismarı üçün yaradılan "Nord Stream 2 AG" şirkətinin yeganə səhmdarı və təsisatçısı "Qazprom" şirkəti sayılır. Avropa Birliyinin enerji direktivləri isə artıq buna yol vermir. Qurumun qəbul etdiyi direktivə əsasən, qaz energetikası sahəsində Avropa qanunvericiliyi təkcə quru sahədə deyil, dəniz məkanındakı enerji daşıyıcalarına da şamil ediləcək. Bu o deməkdir ki, "Qazprom" "Şimal axını-2"nin sadəcə 50%-dən yararlana biləcək. Qalan enerji gücü 3-cü tərəfə verilməlidir. Bu məsələni həll etmək üçün isə tədarükçüdən asılı olmayan başqa bir qaz nəqli operatoru yaradılmalıdır.

Almaniya Federal Agentliyi bunu əsas götürərək, "Qazprom"un AB direktivlərindən və qaydalarından istisna tutulmaqla bağlı müraciətini rədd edib. "Qazprom", buna rəğmən, hələ də qazın tədarükü və nəqli ilə bağlı ona eksklüziv hüquqlar verilməsini istəyir. Bunun ardınca Rusiya Düsseldorfdakı Ali Məhkəməyə müracət etsə də, yenə rədd cavabı alıb. İndi ruslar Avropa Birliyi məhkəməsinə müraciət edəcək. Amma onların yenə rədd cavabı alması gözlənilir. Bu durumda Rusiyanın maraqlarına cavab verməmdiyi üçün "Şimal axını-2"nin tikintisi daha bir neçə il gecikə bilər. Bunu Rusiyanın Enerji İnkişafı Fondunun direktoru Sergey Pikin də xüsusi olaraq vurğulayır. Onun sözlərinə görə, Avropanın indiki mövqeyi əsasında "Şimal axını-2"nin inşası Rusiya üçün sərfəli deyil və "Qazprom" məsələnin həllini tapmadığı təqdirdə tikintini bir neçə il ləngidə bilər. O, "Şimal axını-2"yə qarşı Polşa tərəfdən də daha bir neçə məhkəmə iddiasının qaldırılacağını istisna etmir və bunu inşaata əlavə əngəl kimi qiymətləndirir. Artıq məlumdur ki, Polşanın PGNİG şirkəti "Qazprom"dan Stokholm Arbitraj Məhkəməsinin müəyyən etdiyi vəsaitləri almasa, Varşava "Şimal axını-2" qaz kəmərinin aktivlərinə həbs qoymağa cəhd edəcəyini bildirib. Daha bir əngəl də Danimarka ilə bağlıdır. Danimarka hələ də bu kəmərin ərazi sularından keçməsinə icazə vermir. Rusiyanın xarici işlər naziri Sergey Lavrov Danimarkanın kəmərin çəkilişinə verilən icazəyə yenidən baxması ehtimalını şərh edərkən bunu təkcə ölkəsi yox, bütün Avropa üçün qəbuledilməz hal adladırıb:"Şimal axını-2"qaz kəmərinin çəkilişinə maneələrin yaradılması Avropa üçün qazın qiymətinin bahalaşmasına gətirib çıxara bilər". Bununla yanaşı, Lavrov onu da vurğulayıb ki, Rusiyanın boru kəməri ətrafında yaranmış problemləri həll etmək üçün müxtəlif hüquqi alətləri var: "Ekspertlər bu fikirdədir ki, bütün bu hüquqi əngəllərin həlli Avropa Birliyi vətəndaşları üçün qazın bahalaşmasına gətirib çıxaracaq".

Beləliklə, göründüyü kimi, baş verənlər "Şimal axını-2"nin, rusların ümid etdiyi kimi, heç gələn il ərzində də inşasının başa çatmayacağını deməyə əsas verir. Bu durumda ruslar Avropa qaz bazarından istədikləri həcmdə gəlirdən məhrum olacaqlar. Bu durumda Rusiya üçün çıxış yollarından biri Azərbaycan üzərindən qazını Avropaya ötürməkdir. Elə bir müddət əvvəl də məhşur "Euraktiv" portalı belə bir məsələni gündəmə gətirmişdi ki, Rusiya qazı Azərbaycanın təşəbbüsü ilə ərsəyə gələn "Cənub Qaz Dəhlizi" boru kəməri sisteminin doldurulması üçün mənbələrdən biri ola bilər. Azərbaycan tərəfi də dəfələrlə bəyan edib ki, "Cənub Qaz Dəhlizi" sisteminə Azərbaycandan başqa və ya onunla bərabər yeni mənbələrdən qaz cəlb etməkdə maraqlıdır. Yeni potensial mənbələrdən "Cənub Qaz Dəhlizi"nə qazın vurulması imkanları mövcuddur. Bu, Yaxın Şərq, Mərkəzi Asiya və ya Şərqi Aralıq dəniz regionları, eləcə də Rusiya qazı da ola bilər. Bu mənada, Azərbaycan heç bir istisna və ya ayrıseçkilik etmir, bütün qaz istehsalçıları ilə işləməyə hazır olduğunu bildirir. Burada nəzərə alınmalıdır ki, "Şimal axını-2"dən fərqli olaraq, "Cənub Qaz Dəhlizi" ilin sonuna kimi istifadəyə veriləcək. Azərbaycan təbii qazını Avropaya çatdıracaq "Cənub Qaz Dəhlizi"nin son halqası olan TAP boru kəmərinin də 95,1 faizi yekunlaşıb. Bir daha xatırladaq ki, ötən ilin noyabrında TAP-ın Yunanıstan hissəsində sınaq məqsədilə qaz nəqlinə başlanıb. Belə ki, Yunanıstandakı Evros çayı ilə Kipoidəki kompressor stansiyası arasında boru kəmərinin 2 kilometrlik hissəsinə təbii qaz qəbul edilib. Bu, boru kəmərinin istismara verilməsi prosesinin ilkin mərhələsidir. Həmin prosesin məqsədi boru kəməri infrastrukturunun tamamilə təhlükəsizliyini və işlər başa çatdıqdan sonra istismara hazır olmasını, eləcə də milli və beynəlxalq təhlükəsizlik, həmçinin istismar standartlarına uyğun olmasını təmin etməkdir. Təbii qazın boru kəməri sisteminə daxil edilməsi "Şahdəniz-2" qazının Avropaya tədarükünün başlanğıcı üzrə növbəti mərhələdir.




TAP vasitəsilə ticari məqsədlə qaz nəqli 2020-ci ilin oktyabrında, yəni İtaliyaya qədər olan hissənin tam istifadəyə veriləcəyi və sınaqdan keçiriləcəyi vaxtda gözlənilir. İlk mərhələ istifadəyə verildikdən sonra təbii qaz tədricən boru kəmərinin Yunanıstan marşrutunun digər hissələrinə, eləcə də Albaniya və İtaliyaya mərhələli şəkildə nəql edilməyə başlanacaq. Ümumilikdə isə "Cənub Qaz Dəhlizi"nın ötürücülük gücünün bir neçə dəfə artırılması da mümkündür və bu şəraitdə Rusiya da öz qazını bu kəmərlə Avropaya çatdıra bilər. Prosesdə Avropa özü dı olduqca maraqlıdır.

***Ramil QULİYEV***

**Koronavirus pandemiyası fonunda Bakıda mənzil, xüsusilə də kirayə bazarının aktivliyi sıfıra yaxınlaşıb. Aparılan monitorinqlərin nəticəsinə əsasən, Bakıda kirayə mənzil bazarında durğunluq yaşanır.**



# Karantin dövrü, tələbələr Bakıda yox - kirayə mənzillərin bahalaşmasının "müəmmalı" səbəbi...

Pandemiya dövrü ilə əlaqədar olaraq paytaxt ərazisində icarəyə verilən mənzillərin sayı azalıb.

Məlumdur ki, Bakıda kirayə mənzillərdə qalan əksər tələbə hazırda mövcud vəziyyətlə əlaqədar rayonlara geri dönüb. Həmçinin, karantinlə bağlı müvəqqəti iş yeri bağlananlar da rayona qayıdıblar.

Kirayə mənzil bazarında durğunluq yaşanmasına baxmayaraq, son zamanlar Bakıda icarəyə verilən evlərin qiyməti bahalaşıb. Maraqlıdır, tələbələr Bakıda olmadığı bir vaxtda mənzillərin kirayə qiyməti nə səbəbdən yüksəlib?

Məsələ ilə bağlı fikir bildirən daşınmaz əmlak məsələləri üzrə ekspert Nüsrət İbrahimli qeyd etdi ki, aprel ayında Bakıda kirayə mənzillərin qiymətində 2.98 faiz artım müşahidə edilib. Ticarət obyektlərinin icarəsi bazarında isə 0.78 faiz azalma olub: "Kirayə mənzillərin qiymətinin bahalaşmasının səbəbi koronavirus pandemiyası ilə əlaqədar təklif portfelinin azalmasıdır. İnsanlar mənzillərini kirayə vermək üçün pandemiyadan sonrakı dövrü gözləməyə üstünlük verib. Bu dövrdə ticarət obyektlərinə tələbatın azalması isə icarə qiymətlərinin ucuzlaşmasına səbəb olub"

Əmlak məsələləri üzrə ekspert Elnur Fərzəliyev qeyd etdi ki, pandemiya dövrünə qədər mənzillərin gündəlik kirayəyə verilməsi gəlir gətirən bir sahə kimi qiymətləndirilə bilərdi. Gündəlik mənzillərin birgünlük orta qiyməti təqribən 25-500 manat civarında dəyişirdi: "Ən ucuz qiymətə olanlar mərkəzdən kənar, orta qiymətə normal şəraitli 1 otaqlı mənzillər, ən baha qiymətə olanlar isə villalar, yeni tikili binalardakı tam şəraitli çoxotaqlı mənzillərdir. Ümumiyyətlə, bu sahəyə tələbat turizmin inkişafından sonra başladı. Otellərdə yerlərin məhdudluğu və qiymətlərin bahalığı səbəbindən, paytaxta gələn qonaqlar və xüsusilə də Şərq ölkələrindən olan çoxnəfərlik ailələr gündəlik kirayəlik mənzillərə daha çox üstünlük verirlər. Çünki beşnəfərlik bir ailənin otelə yerləşməsi azı 200 manat xərc tələb edirsə, gündəlik kirayəlik mənzildə bu xərc 80-100 manat arasındadır. Eyni zamanda, turistlər oteldən fərqli olaraq, evdəki mətbəxdən istifadə etməklə, restoran xərclərini də xeyli azaldırlar.

Bu sahə daha çox rieltorların və turizm şirkətlərinin məşğul olduqları bir sahədir. Lakin koronavirus pandemiyası nəticəsində ölkədaxili səfərlərin məhdudlaşdırılması və xarici ölkələrlə sərhədlərin bağlanması bu sahəyə olan tələbatı sıfıra endirib".

***Günel CƏLİLOVA***

## Böyüklərimizi qoruyaq!

**Bir çox mənəvi keyfiyyət var ki, insan öz xisləti ilə onların pis və ya yaxşı olduğuna qərar verə bilir. Belə mənəvi keyfiyyətlərdən biri, bəlkə də birincisi hər bir insanın öz böyüklərinə etdiyi hörmət, onlara verdiyi dəyər, qiymət və ümumiyyətlə, böyüklərinə olan münasibətidir. Bu, çox həssas və olduqca diqqət tələb edən bir mövzudur.**



Danılmaz bir həqiqət var ki, insan yaşa dolduqca daha kövrək olur, körpə uşaq kimi sanki hər şeydən küsür, inciyir, daha çox diqqət, daha çox qayğı umur. Yaxınlarının, doğmalarının himayəsinə daha çox ehtiyacı olur.

Xalqımızın özünəməxsus bir çox adət-ənənəsi var. Və illərdir o adət-ənənəni qoruyub saxlayır. Hər bir Azərbaycan vətəndaşının önəm verdiyi və olduqca həssas yanaşdığı, tarix boyu qoruyub saxladığı bir adəti var: böyüklərə hörmət, ehtiram və qayğı.

Buna aid çox sayda nümunə göstərmək olar. Lakin bunların ən bariz nümunəsi olaraq hazırda bütün dünyanı cənginə alan pandemiya dövründə ölkəmizdə yaşlı nəsil üçün atılan müsbət addımları göstərmək olar. Pandemiya təhlükəsini hiss edən kimi ölkə başçımız, zati-aliləri cənab İlham Əliyev ilk olaraq yaşlı insanları düşündü. Və "Biz birlikdə güclüyük" devizi altında "Böyükləri qoruyaq" sosial aksiyaya başlandı. Yaşı 65-dən yuxarı olan yaşlı insanların evdən çıxmaması məsləhət görüldü. Onların evdə olduqları müddətdə bütün sosial təminatlarının həll olunması üçün göstərişlər verildi. Onlara kömək məqsədilə ərzaq yardımları ayrıldı, əməkhaqlarının verilməsi şərtilə bir qrup könüllü ayrıldı. Onların sosial problemlərinin yerindəcə həll olunması məqsədilə lazımi göstərişlər verildi. Aralarında sağlamlıq problemləri olan çoxlu sayda insanın hər biri ilə xüsusi qaydada maraqlanıb, nəzarətə alınmaları üçün həkimlərə, tibb bacılarına müəyyən göstərişlər verildi. Sağlamlığından şikayəti olanlar elə evlərindəcə müayinə edilib, müəyyən müalicələr təyin olundu. Eyni zamanda, yaşı 65-dən yuxarı olan insanların gündəlik ərzaq məhsullarının, dərman vasitələrinin alınıb verilməsi, kommunal xidmət haqlarının ödənilməsi və digər sosial xidmətlərin göstərilməsi üçün bütün lazımi tədbirlər görüldü.

Atılan addımların, görülən tədbirlərin hamısı ölkə başçımız İlham Əliyevin böyüklərə verdiyi yüksək dəyərin, onlara olan sonsuz hörmətin, diqqət və qayğının ən bariz göstəricisidir. Cənab Prezidentin böyüklərlə bağlı bu addımı, eyni zamanda, bizim kimi xalqına xidmət edən gənc rəhbərlərə bir örnəkdir.

Ulu Öndər, dahi şəxsiyyət Heydər Əliyevin tarixlərdə, yaddaşlarda daim yaşayan məşhur bir ifadəsi var: "Mən fəxr edirəm ki, azərbaycanlıyam". Doğrudan da, şəxsən öz adımdan demək istəyirəm ki, Azərbaycanda doğulduğum üçün, bu torpağın, bu ölkənin vətəndaşı olduğum üçün qürur duyuram. Mən və mənim kimi çoxlu sayda Azərbaycan gənci fəxr edirik ki, biz azərbaycanlıyıq!

***İnarə Eyubova,***
***"Xəzər Gənclər Evi"nin direktoru***

# Xalqı şəxsi mənafeyinə qurban verən məmurlar hələ də var... Lerikin Dzdipok kəndi və daha neçə kənd...

**Dövlət başçısı vətənimizin bugünkü inkişafı, daha xoşbəxt sabahı, xalqın firavan yaşayışı, gözəl rifahı üçün yorulmadan çalışır.**




Ölkə vətəndaşlarına göstərdiyi diqqət və qayğı bir an belə unudulmur. Belə bir tərəqqi dövründə dağlar diyarı Lerik rayonunun çox kəndində indi insanlar zülm-zillət içində, kasıb vəziyyətdə yaşayır. Bunun da birinci günahkarı yalnız öz mənafeyini güdən, xalqın qanı bahasına belə vardövlət yığan rayonda səlahiyyət sahibi olan məmurlardır. Lerikdə vəzifə başında olanlar görülən işlərdən nümunə götürüb əhaliyə xidmət etmək əvəzinə, sözün həqiqi mənasında, onların başından vurub, tikələrini əlindən alırlar. İndiyə qədər olmayıb ki, icra başçısı bir sakini qəbul edib onun dərdinə qalsın. Məhz elə bu biganəliyin səbəbidir ki, qayğılar içində itib-batan kəndlərin sayı durmadan artır.

Sosial-iqtisadi çətinlikləri dözülməz həddə olan belə kəndlərdən biri Dzdipokdur. Nağıllardan oxuduğumuz kimi, sanki sovet rejimi dağılanı bu kəndin xoşbəxtliyi qara qoçun buynuzlarında gedib.

Dzdipokun problemlərini saymaqla qurtaran deyil. Onu da deyim ki, sovet dövründə kənd yaxşı inkişaf etmişdi. İndi isə çoxdandır burada bir yenilik gözə çarpmır. Dzdipok kəndinə ictimai nəqliyyat işləmir. Nəticədə ara sürücülər ehtiyac üzündən rayon mərkəzinə gedən adamda abırhəya qoymurlar. Qocalar Piran kəndinə düşüb bankomatdan pensiya pullarını çıxara bilmir. Ən dəhşətli odur ki, şəhərə gedə bilməyən sakinlər dəllallar tərəfindən onlara təklif edilən keyfiyyətsiz, vaxtı keçmiş ərzaq məhsullarını beşqat baha qiymətə almaq məcburiyyətində qalırlar. Bir balaca yağış yağanda palçıq əlindən kəndin içində gəzmək olmur. Dzdipoklular kitabxananın, klubun, idman meydançasının, tibb məntəqəsinin nə olduğunu çoxdan unudublar.

Dzdipok camaatı çox çətin durumda yaşayır. Ailə var ki, qazancı heç bir qarın çörəklərinə çatmır. Evlərin əksəriyyətində günlərlə ocaq qalanmır. 10 il bundan əvvəl kəndə qazın veriləcəyi vədi hələ də söz olaraq qalır. Kəndliyə meşədən ulaqla odun gətirmək də qadağan olunub. Qaldı ki, meşə işçiləri üçün "qızıl qiymətinə" istədiyi vaxt maşın-maşın odun satmaq adi haldır. İşıqların tez-tez sönməsi də artıq adamları boğaza yığıb. Ümumiyyətlə, Dzdipok kəndi hər qayğıdan təcrid olaraq problemlər bataqlığında can verir. Amma rayon rəhbərlərinin yalan vədlərinə inanmayan kənd camaatı ehtiyac dolu komasında oturub, ümidini yenə də haqqədalətə bağlayıb. Axı onlar ölkə rəhbərinə ürəkdən inanırlar və bilirlər ki, onun köməyilə Lerikdə də mizan-tərəzi öz yerini tapacaq.

***Zəfər ORUCOĞLU***
***Azərbaycan Jurnalistlər Birliyinin üzvü***

# Azərbaycan Ensiklopediyası barədə yeni iradlar - redaksiya heyətinin reaksiyaları...

***Sevda Mehrəliyeva:** "Milli Ensiklopediyanın vəziyyəti necə tənqid obyekti ola bilər ki, onun cildlərinin hazırlanmasında akademiklər, yüksək səviyyəli mütəxəssislər iştirak edir və bu, kollektiv əməyin məhsuludur"*

**Son dövrlər ayrı-ayrı şəxslər, elm adamları, eləcə də millət vəkilləri Azərbaycan Milli Ensiklopediyasının bərbad vəziyyətdə olduğu, eləcə də burada bir sıra materialların hazırlanmasında köçürmələrə yol verildiyi barədə ittihamlar səsləndirirlər.**

Qeyd edək ki, Azərbaycan Milli Ensiklopediyasının cildlərinin nəşrə hazırlanması və çapa təqdim edilməsi Azərbaycan Milli Elmlər Akademiyası tərkibində fəaliyyət göstərən xüsusiləşdirilmiş elmi təşkilat olan Azərbaycan Milli Ensiklopediyası Elmi Mərkəzində həyata keçirilir. Bu elmi təşkilat "Azərbaycan Milli Ensiklopediyası Elmi Mərkəzinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 5 may 2004-cü il tarixində imzaladığı 206 saylı Sərəncamı ilə yaradılıb.

Elmi Mərkəz yaradıldıqdan 10 il sonra Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə tikilib istifadəyə verilmiş, əməkdaşların peşəkar fəaliyyəti üçün hər bir şəraiti olan, yüksək memarlıq tələblərinə cavab verən, rahat və gözəl binaya köçürülüb.

5 may 2014-cü il tarixində yeni binanın açılışında Azərbaycan Respublikasının Prezidenti iştirak edib və Ensiklopediyanın kollektivinə öz tövsiyələrini bildirib. Elmi Mərkəzdə Milli Ensiklopediyanın çapdan çıxmış bütün cildləri ilə yanaşı, Azərbaycan xalqının böyük oğlu Heydər Əliyevin və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin əsərləri, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın rəhbərliyi altında 2012-ci ildə nəşr edilmiş "Azərbaycan Muğam Ensiklopediyası", müxtəlif dillərdə yazılmış ensiklopedik xarakterli kitablar və foliantlar, o cümlədən, Raban Mavr tərəfindən tərtib olunaraq 847-ci ildə çapdan çıxmış dünyanın ilk ensiklopediyalarından biri olan "De rerum naturis" ("Əşyaların təbiəti") kitabının orijinalını tam dəqiqliklə təkrar edən, Almaniyada hazırlanmış əla keyfiyyətli surəti var.

Elmi Mərkəzdə 110-dan artıq əməkdaş fəaliyyət göstərir. Bunların arasında həm uzun illər bu təşkilatda çalışmış təcrübəli ensiklopediya işçiləri, həm də bu işə yeni girişmiş gənclər də var. Elmin nailiyyətlərini və ictimai həyatın yeniliklərini kollektivin qarşısında işıqlandırmaq üçün buranın böyük akt zalında elmi seminarın vaxtaşırı iclasları keçirilir. Seminarın iclaslarında çıxış etmək üçün görkəmli alimlər və ictimai xadimlər dəvət olunur.

Rəsmi qeyd edildiyinə görə, "Azərbaycan Milli Ensiklopediyası" Elmi Mərkəzinin əsas fəaliyyət sahəsi təqribən 20 cilddən ibarət Azərbaycan Milli Ensiklopediyasının yerdə qalan bütün cildlərini yüksək keyfiyyətdə hazırlayaraq çapa təqdim etməkdir və qarşıdakı illər ərzində bu mühüm vəzifə yerinə yetirilməlidir. Heç şübhə yoxdur ki, Ensiklopediyanın illər boyu birgə əmək prosesində formalaşmış peşəkar kollektivi Azərbaycan Prezidentinin göstərdiyi qayğı nəticəsində, Azərbaycan dövlətinin və Azərbaycan Milli Elmlər Akademiyasının dəstəyilə bu məsuliyyətli işin öhdəsindən gələcək. Bundan sonra Elmi Mərkəzdə hazırlanmış cildlərin xarici dillərə tərcüməsi, sahə ensiklopediyaları, görkəmli şəxsiyyətlərin həyat və fəaliyyətinə, təbiət hadisələrinə, böyük əhəmiyyət daşıyan tarixi proseslərə həsr olunmuş və ensiklopedik xassəli başqa məcmuələrin işlənib hazırlanması və çapı nəzərdə tutulur.

Milli Ensiklopediyanın səviyyəsinin aşağı olması, onun qeyri-peşəkar səviyyədə hazırlanması ilə bağlı səsləndirilən ittihamlarla bağlı sözügedən nəşrlərin redaksiya heyəti ilə əlaqəmiz alınmadı. Buna görə də mövzu ilə bağlı Azərbaycan Milli Ensiklopediyası Elmi Mərkəzinin "Təhsil, mətbuat, televiziya, turizm və idman" elmi redaksiyasının müdiri, "Azərbaycan Milli Ensiklopediyası" Elmi Mərkəzində ictimaiyyətlə əlaqələr üzrə məsul şəxs, Əməkdar jurnalist Sevda Mehrəliyeva ilə əlaqə saxladıq.

Azərbaycan Milli Ensiklopediyası ilə bağlı səsləndirilən fikirlərin heç birinin həqiqətə uyğun olmadığını qeyd edən S.Mehrəliyeva "Bakı-Xəbər"in telefonla müraciətinə cavabında bildirdi ki, bu fikirləri söyləyənlərin əksəriyyəti nəinki Azərbaycan Milli Ensiklopediyasının hazırlanması prosesindən, ümumiyyətlə, ensiklopediyanın hazırlanması prinsiplərindən xəbərsiz olanlardır. Əslində isə Milli Ensiklopediyanın hazırlanmasına çox ciddi və məsuliyyətlə yanaşılır, Milli Ensiklopediyanın müxtəlif sahələr üzrə akademiklərdən, həmçinin, yüksək səviyyəli mütəxəssislərdən ibarət, həm də sədr səviyyəsində təsdiq olunmuş redaksiya heyəti var. "Bilirsiniz, bəzi insanlar bütün sahələrdə yaxşını da, pisi də görməyi ənənəyə çeviriblər. Milli Ensiklopediyanın vəziyyəti necə tənqid obyekti ola bilər ki, onun cildlərinin hazırlanmasında akademiklər, yüksək səviyyəli mütəxəssislər iştirak edir və bu, kollektiv əməyin məhsuludur. Biz bu işə o qədər həssaslıq və dəqiqliklə, həm də məsuliyyətlə yanaşırıq ki, onu ifadə etmək çətindir. Artıq Milli Ensiklopediyanın "Azərbaycan" adlı xüsusi cildi (iki dildə) və universal ensiklopediyanın 9-cu cildi işıq üzü görüb, 10-cu cild üzərində iş gedir və paralel olaraq 11-ci cildin materialları hazırlanır. Hansısa bir sahə üzrə bir ensiklopedik məlumatın, məqalənin hazırlanması üçün müxtəlif mənbələrə müraciət edilir, bütün məlumatlar detallarına qədər dəqiqliklə əks olunur və zamanla həmin faktlar bir daha illərə uyğun olaraq yenilənir. Bəzən bir cilddə 5 mindən artıq məqalə yer alır. Ensiklopediyanın cildlərini hazırlayarkən biz rəsmi mənbələrə müraciət edirik. Hansısa bir ölkə haqqında məqalə hazırladığımız zaman mütləq həmin ölkənin rəsmi mənbələrindən istifadə edərək ona istinad edirik. Ensiklopedik məlumat hazırlamaq çox çətindir. Gərək o məqalədə məlumatların dəqiqliyi, səhihliyi tam qorunsun və o sahə ilə bağlı ən mühüm məlumatlar lakonik şəkildə və ensiklopedik üslub qorunmaqla əks olunsun. Məsələn, biz məqalə hazırlayarkən Açıq Ensiklopediyadan yox, əsasən həmin materiallar üzrə rəsmi mənbələrdən istifadə edir və bu zaman materialın sonuncu dəyişmə tarixini də nəzərə alırıq. Yəni məlumatların tam olaraq dəqiq olmasını əsas götürürük. Məsələn, ABŞ haqqında ensiklopedik məlumat hazırlayırıqsa, o ölkənin tarixi, mədəniyyəti, ədəbiyyatı, iqtisadiyyatı, elmi, elm-təhsil müəssisələri haqda məlumatlar veririk, bundan əlavə, böyük tarixi ənənələrə malik olan qədim ali məktəbləri haqqında ayrıca məqalə də daxil edirik.




*"...hansı məsələlərlə razılaşmırsa..."*

Sovet dövründə Azərbaycan Sovet Ensiklopediyasının 10 cildi nəşr edilsə də, nəzərdə tutulan "Azərbaycan SSR" xüsusi cildi nəşr edilməyib, lakin Azərbaycan Sovet Ensiklopediyasının "A" hərfi ilə başlayan cildində həmin xüsusi cildə istinad verilmişdi.

Bununla belə, mərkəzi hökumətin qərarı ilə Rəsul Rzanın rəhbərliyi altında hazırlanaraq nəşr olunmuş Azərbaycan Sovet Ensiklopediyasının 1-ci cildi orada gedən 7 xəritəyə görə satışdan yığışdırılmış və məhv edilmişdi. Qeyd edək ki, o dövrdə SSRİ-nin 13 respublikasında xüsusi cild nəşr olunmuşdu. Azərbaycan tarixində ilk dəfə olaraq "Azərbaycan" xüsusi cildi 2007-ci ildə nəşr edildi və 2008-ci ilin yanvarında yüksək səviyyədə təqdimatı keçirildi".

S.Mehrəliyeva qeyd etdi ki, Milli Ensiklopediyaya hər bir material təlimata uyğun olaraq salınır və bu prosesə ciddi nəzarət mövcuddur. "Bizim hazırladığımız bütün materiallar mərhələli şəkildə və dəfələrlə yoxlanılır. Bu prosesə ciddi nəzarət var və biz öz işimizi böyük məsuliyyətlə həyata keçiririk. Biz hər şeyi sıfırdan başladıq. Sözümün canı odur ki, ensiklopedik material hazırlamaq çox çətin və məsuliyyətli işdir. Hər kəs ensiklopedik material hazırlaya bilməz, hətta sahə ensiklopediyaları belə mütəxəssis kollektivləri tərəfindən hazırlanır. Ümumi danışmaq görülən işə kölgə salmaq kimi anlaşılmasın deyə, konkret materiala dair irad bildirilsə, daha yaxşıdır. Əgər kimsə hansısa bir cildimizdə nöqsan tapıbsa, nələrsə onu qane etmirsə, hansı məsələlərlə razılaşmırsa, "Azərbaycan Milli Ensiklopediyası" Elmi Mərkəzinə gəlib öz fikirlərini bildirə bilər. Hansısa bir məsələdə haqlı çıxarlarsa, biz anlayışla qarşılayar və həmin nöqsanı aradan qaldırarıq. Bizim mərkəzin qapıları hər kəsin üzünə açıqdır" - deyə S.Mehrəliyeva vurğuladı.

***İradə SARIYEVA***

# Mədəniyyət Nazirliyi strukturlarında daha bir neqativ üzə çıxır - qeyri-ixtisas sahibləri...

**Mədəniyyət Nazirliyində baş verən son proseslər nəticəsində bu qurumun strukturlarında qeyri-ixtisas sahiblərinin də çox olması faktı üzə çıxıb. Mədəniyyət adamları ilə söhbətlərimiz zamanı məlum olur ki, nazirliyin strukturlarında da, xüsusən də kitabxana, muzey, klub və mədəniyyət evlərində daha çox qeyri-peşəkar, bu sahələr üzrə ixtisas sahibi olmayanlar çalışır.**

Bu problem daha çox özünü regionlarda göstərir və nazirliyin regional mərkəzlərində də bu cür qeyri-ixtisas sahiblərinin təmsil olunduğu bildirilir. Əvvəlki dövrlərdə də nazirliyin əlaqədar qurumları özləri etiraf etmişdilər ki, bu istiqamətdə qeyri-ixtisas sahibləri var və onlar ixtisasartırma kurslarına cəlb edilirlər. Ümumiyyətlə, ölkənin müvafiq ali məktəblərini bitirmiş ixtisaslı kadrların mədəniyyət qurumlarında yerləşdirilməsi istiqamətində ciddi problemlər mövcuddur.

Yerlərdə kadr çatışmazlığını bəyan edən nazirlik strukturları bu problemi ixtisaslı kadrları işə cəlb etməklə, onların işə qəbul olunma şərtlərini yüngülləşdirməklə həll etmək istəmirlər. Bu problemi kitabxanalar, klublar, eləcə də digər qurumlar bütövlükdə mədəni xidmət sahələrinə təsadüfən düşən insanları ixtisasartırma kurslarına cəlb etməklə həll etmək yolunu tutub. Fakt budur ki, yerlərdə, xüsusən də kəndlərdə kitabxanaların, klubların, mədəniyyət evlərinin, özfəaliyyət dərnəklərinin vəziyyəti qənaətbəxş deyil, fəaliyyət göstərdikləri binalar nəinki müasir texniki-kommunikasiya vasitələri ilə təmin edilməyib, hətta binaların özləri qəzalı vəziyyətdədir.

Bu arada mədəniyyət işçilərindən aldığımız məlumata görə, bölgələrdə bir sıra mədəniyyət evlərinin, klub, dərnək və kitabxanaların bağlanması haqqında da söz-söhbətlər var. Yeni klubların çoxunun fəaliyyətinin mövcud şəraitdə gərəksiz olduğu və buna görə də onların bağlanması "zərurətə çevrilib".

Bir məqamı da qeyd edək ki, kəndlərdə, qəsəbələrdə hansısa kitabxananın, klubun, mədəniyyət evinin problemlərini dilə gətirən əməkdaşlar olurdusa, dərhal həmin əməkdaş əvvəlcə rayon mədəniyyət idarələri, hazırda isə regional mədəniyyət idarələrinin rəhbərliyi tərəfindən işdən çıxarılmaqla hədələnirdilər. Onlar da işlərini itirməmək üçün "mən elə deməmişdim, jurnalist elə yazıb" deyə məsuliyyəti öz üzərilərindən mətbuatın üzərinə atırdılar. Bu barədə kifayət qədər fakt var.

İNK baş katibi, Yeni Yazarlar və Sənətçilər İctimai Birliyinin sədri, yazıçı-kulturoloq Aydın Xan Əbilov Mədəniyyət Nazirliyi strukturlarına qeyri-ixtisas sahiblərinin hansı üsullarla yol tapmasının səbəblərini "Bakı-Xəbər"ə şərh etdi. "Bu, Azərbaycanda olduqca ciddi problemdir. Əslində, bir çox sahədə yerlibazlıq, dostbazlıq, qohumbazlıq, rəhbər şəxslərin öz yaxınlarını çalışdıqları idarələrə cəlb etməsi kimi mənfi tendensiyalar mövcuddur. Amma bu məqam ola bilsin ki, özəl xidmət sahəsində, biznesdə o qədər də gözə çarpmasın, amma dövlət qurumlarında hiss olunur. Birbaşa kütlə ilə ünsiyyətdə olan bir sahə olaraq tanınan mədəniyyət və incəsənət sahələrində, xüsusən də mədəniyyətin müxtəlif istiqamətlərində - kitabxana, mədəniyyət evləri, klublar, muzeylər və digər sistemlərdə xüsusilə diqqəti çəkir. Hətta bir çox tanınmış insanın, tarixi şəxsiyyətlərin mənzil, xatirə muzeylərinə belə yalnız onun qeyri-ixtisas sahibi olan yaxınlarının direktor və inzibati rəhbərlikdə təmsil olunmasına şərait yaradılır. Biz bunun şahidi oluruq. Fikir versəniz, Azərbaycanın dövlət nəzdində olan müxtəlif ev muzeylərində bunun şahidi olarsınız. Halbuki, mədəniyyət çox spesifik bir sahədir və bu sahədə çalışan insan Azərbaycan dilini, mədəniyyətini, ədəbiyyatını, mədəniyyət tarixini, eyni zamanda da çağdaş dünya mədəniyyətinin müxtəlif istiqamətlərini gözəl bilməlidir. Yaşadığı şəhərin, bölgənin tarixini, spesifik mədəni, etnoqrafik xüsusiyyətlərini anlamalıdır. Bilirsiniz ki, müasir anlamda mədəniyyət yalnız dar çərçivədə başa düşülmür, həm də turizmin bir qolu olaraq kreativ iş yerləri kimi qəbul edilir. Bu gün mədəniyyətin bütün istiqamətləri dünya turistlərinin Azərbaycana cəlb edilməsi və yerli büdcənin doldurulması üçün çox əhəmiyyətli bir sahə sayılır. Mədəniyyət qurumlarında, muzeylərdə, qoruqlarda və başqa bu kimi müəssisələrdə çalışanlar mədəniyyətşünaslığı təmsil etməklə yanaşı, həm də xarici dil bacarıqlarına yiyələnməlidirlər. Əgər İranla sərhəd bölgələrdisə, məsələn, Naxçıvan, cənub bölgəsidirsə burada bu sahədə çalışanların fars və ərəb dillərini bilməsi vacibdir. Çünki ən çox turist buradan gəlir. Şimal bölgəmizdə rus dili, Bakıda və digər beynəlxalq əhəmiyyətli turizm məkanları yerləşən bölgələrdə isə ingilis, fransız, alman, ispan və ərəb dillərini bilmək mütləqdir. Amma görün biz burada bunun əvəzinə hansı mənzərə ilə qarşılaşırıq? Kimi mədəniyyət şöbəsinə direktor qoyurlarsa, o, ilk növbədə, öz qohum-əqrəbasını, yerlilərini ətrafına yığmağa başlayır, yaxud, ən pis halda, müəyyən şirinlik müqabilində, rüşvət almaqla qeyri-ixtisas sahiblərini işə götürür, onları mədəniyyət sahələrinə cəlb edirlər. Əvvəllər bu az hiss olunurdu. Çünki bu sahədə məvacib az idi. Amma son dövrlərdə müxtəlif sahələrdə, o cümlədən də mədəniyyət sahəsində çalışan işçilərin əməkhaqlarının qaldırılması, pensiya təminatına kömək edilməsi, tibbi sığortaya dövlət, yaxud işəgötürən tərəfindən məbləğ ödənilməsi nəticəsində bu sahədə işləmək üçün insanlarda maraq yaranıb. Üstəlik də, bilirsiniz ki, qeyri-neft sektorunun inkişafı ilə bağlı Azərbaycanda böyük dövlət proqramları həyata keçirilir. Onların da bir çoxu mədəniyyətin müxtəlif sahələri ilə bağlıdır".

*Aydın Xan Əbilov: "Mədəniyyətin bu cür vacib sahələrinin qeyri-ixtisas sahiblərinə həvalə edilməsi nəticəsində bu istiqamətdə kifayət qədər problem var"*



*"...öz qohum-əqrəbasını, yerlilərini ətrafına yığmağa başlayır"*

A.X.Əbilov vurğuladı ki, ölkəmizə gələn turistlər mədəniyyət ocaqlarına, xüsusən də muzeylərə getməyə üstünlük verirlər. "Təəssüflər olsun ki, biz buna əhəmiyyət vermirik. Bu da bir sıra neqativ hallara səbəb olur. Məsələn, Lənkəranda bir "Dairəvi qala" adlı abidə var. Bilmirəm onun bərpasını hansı şirkətə vermişdilər, iki ildən sonra bərbad vəziyyətə düşüb. Stalinin həbsdə olduğu, İran-Rusiya müharibələrinə şahid olan orta əsrlərin unukal zindan qalası, istehkam qalası hazırda dağılmaq ərəfəsindədir. Artıq onun damı uçub, tavanı bərbad vəziyyətə düşüb.

Mədəniyyətin bu cür vacib sahələrinin qeyri-ixtisas sahiblərinə həvalə edilməsi nəticəsində bu istiqamətdə kifayət qədər problem var. İstər rayon, şəhər, kənd kitabxanaları, istərsə də məktəb kitabxanalarında bu problemi görürük. Hesab edirəm ki, indiyə qədər nazirliyin strukturlarında çalışan qeyri-ixtisas sahibləri ilə bağlı tədbirlər görülməlidir. Fikrimcə, bu istiqamətdə attestasiyanın keçirilməsi, qeyri-ixtisas sahiblərinin bu sahədən uzaqlaşdırılması zərurətə çevrilib.

Bundan başqa, müəllimlərin, həkimlərin və digər sahə işçilərinin, mədəniyyət strukturlarında işləyənlərin də akkreditasiyasının keçirilməsi zərurətə çevrilib. Özü də bu, Mədəniyyət Nazirliyi tərəfindən yox, neytral bir təşkilat tərəfindən keçirilməlidir ki, hansısa neqativliklərə təkrar yol verilməsin. Təklif edərdim ki, Azərbaycan Prezidenti yanında Mədəniyyət Fondu yaradılsın və bu iş ya onun, ya da Dövlət İmtahan Mərkəzinin xəttilə keçirilsin. Bu, problemin həllinə kömək etmiş olar" - deyə A.X.Əbilov vurğuladı.

***İradə SARIYEVA***

**Nazirlər Kabineti yanında Operativ Qərargahın qərarına əsasən, mayın 18-dən etibarən bir çox sahədə karantin qaydaları yumşaldılıb. Ancaq toy məclislərinin təşkilinə qoyulan qadağa hələ də qüvvədədir.**

*"Toya dəvət edilən qonaq sayı ən azı 3 dəfə azaldılmalı, həmçinin, bir stol ətrafında əvvəlki kimi 12-15 nəfər deyil, 3-5 nəfər otursa daha yaxşıdır"*

# Restoran toyları barədə virusdan sonra hakim rəy - icazə verilsə də, xüsusi qaydalar...

## Natiq Cəfərli: *"...yeni qaydaların tətbiqi gözlənir"*

Karantindən sonra toyların əvvəlki qaydada keçirilməsi gözlənilmir. Ekspertlər təklif edirlər ki, koronavirus pandemiyası tam bitəndən sonra da təmtəraqlı toy məclislərinin keçirilməsi ləğv olunsun.

Təkliflər səslənir ki, kim evlənmək istəyirsə, nikah üçün müraciət etsin, evlənsin. Toylar üçün icazə verilməsi məqsədəuyğun sayılmır. Ən azı, ilin sonuna kimi bu cür kütləvi tədbirlərə məhdudiyyət olmalıdır.

Toylara icazə veriləcəyi halda, Azərbaycanda toylarla bağlı yeni qaydaların tətbiq edilməsi təklif olunur. Maraqlıdır, toylarla bağlı nə kimi qaydalar tətbiq edilə bilər?

İqtisadçı-ekspert Natiq Cəfərli qeyd etdi ki, toyların keçirilməsinə icazə veriləcəyi halda, Azərbaycanda bu məsələ ilə bağlı yeni qaydaların tətbiqi gözlənir: "Nəzərə almaq lazımdır ki, bu, Azərbaycanın tətbiq etdiyi qadağa deyil. Bütün dünyada kütləvi tədbirlər, şadlıqlarla bağlı qadağalar qüvvəyə minib. Hazırda tibbi təhlükəsizlik məsələləri öndə olduğu üçün digər məsələlər arxa plana keçib. Amma, təbii ki, bu, uzun müddət davam edə bilməz. Yəqin ki, bir müddət sonra pandemiyanın gətirdiyi problemlərin artımını hiss edəcəyik. Bu səbəbdən gözlənir ki, növbəti mərhələlərdə bəzi qadağalar da yumşaldılsın.

Məlumat üçün bildirim ki, qonşu Türkiyədə iyunun 1-dən toy salonlarının açılması gündəmdədir. Amma hökumət həkimlərlə birlikdə qaydalar müəyyən edib. Qaydalarda sosial məsafə prinsipi əsas



götürülüb. Qonaqların sayı, masalar, insanlar arasındakı məsafələr həmin qaydalarla tənzimlənir. Bu qaydalara əməl etmək şərtilə toyların keçirilməsinə icazə verilir. Gözlənir ki, Azərbaycanda da buna bənzər qaydalarla toyların keçirilməsinə icazə verilsin.

**Yaxşı olar ki, toya dəvət edilən qonaq sayı ən azı 3 dəfə azaldılsın. Məsələn, bir stol ətrafında əvvəlki kimi 12-15 nəfər deyil, 3-5 nəfər otursa daha yaxşıdır. Amma maskadan istifadə tapşırılsa, yemək məsələsində anlaşılmazlıq qalacaq. İstənilən halda, sosial məsafəni qorumaq, hər qonaqla öpüşüb-qucaqlaşmamağa çalışmaq, gigiyena qaydalarına əməl etmək lazım olacaq".**

*Günel CƏLİLOVA*

**Bütün dünyanı təşvişə salan koronavirus təhlükəsi hər kəsi həyəcanlandırır. Dünyanı vahiməyə salan koronavirus 5 milyon 100 mindən çox insanda aşkarlanıb.**




# "Sədərək" TM sahibi dükan sahiblərindən icarə haqqı tələb edir - həm də iş olmayan karantin günləri üçün...

## *"Sədərək" Ticarət Mərkəzi - Kəmaləddin Qədimov: "Bazar bağlıdır, axı bağlı olan bazardan kim yer haqqı tələb edir, olmayan yerdən pul almaq olar?"*

Virus aşkar olunduğu ilk günlərdən etibarən sürətlə ölkələrə yayıldı. Nəticədə bütün dünya ölkələri koronavirusla mübarizə aparır.

Dünyada koronavirusa yoluxanların sayı 5 milyon 100 mini ötüb. Ölkəmizdə bu istiqamətdə ciddi işlər görülür. Nazirlər Kabineti yanında Operativ Qərargahın qərarına əsasən, koronavirusla bağlı paytaxtda fəaliyyət göstərən iri ticarət mərkəzlərinin ("Mall"lar) fəaliyyəti müvəqqəti olaraq dayandırılıb. O cümlədən, "Sədərək" Ticarət Mərkəzinin fəaliyyəti dayandırılıb.

Artıq iki aya yaxındır adıçəkilən Ticarət Mərkəzi fəaliyyət göstərmir. Bu günlərdə belə bir məlumat yayıldı ki, "Sədərək" Ticarət Mərkəzində icarədarlardan pul tələb edilir: "Sədərək" rəhbərliyi birinci ay onlardan pul almayıb. Amma indi rəhbərlik icarədarları sıxışdırmağa başlayıb. "İkinci ayın pulunu verin" deyə icarədarları hədələyirlər"

Karantinlə bağlı "Sədərək" Ticarət Mərkəzi fəaliyyət göstərmədiyi halda, icarədarlardan pul tələb etmək nə dərəcədə doğrudur?

"Sədərək" Ticarət Mərkəzinin mətbuat xidmətinin rəhbəri Kəmaləddin Qədimov icarədarların iddiası ilə bağlı bildirdi ki, onlardan pul tələb olunmayıb: "Bazar bağlıdır.

Axı bağlı olan bazardan kim yer haqqı tələb edir? Olmayan yerdən pul almaq olar? Biz özümüz işə çıxmırıq. İcarədarlara bazar bağlanmamış güzəşt olunub. Nazirlər Kabineti yanında Operativ Qərargah nə qərar versə, ona uyğun addımlar atılacaq".

*Günel CƏLİLOVA*

# Azərbaycanda İİV infeksiyasının daha çox yayıldığı ərazilər - Şirvan, Hacıqabul, Lənkəran, Masallı, Yevlax, Bakı...

**Səhiyyə Nazirliyi Respublika QİÇS-lə Mübarizə Mərkəzi Azərbaycanda İİV infeksiyasının yayılma göstəricisinin yüksək olduğu ərazilərin adlarını açıqlayıb.**

Mərkəzin Monitorinq və qiymətləndirmə şöbəsinin müdiri Natiq Zülfüqarov "Trend"ə bildirib ki, ölkədə İİV infeksiyasına yoluxma halları daha çox Şirvan, Hacıqabul, Lənkəran, Masallı, Yevlax və Bakıda müşahidə edilir.

Onun sözlərinə görə, cənub rayonlarında İİV-ə yoluxma göstəricisinin yüksək olmasının səbəbi ölkəyə qanunsuz narkotikin daha çox cənub sərhədindən keçirilməsi ilə bağlıdır.

N.Zülfüqarov əlavə edib ki, Azərbaycanda İİV-ə yoluxanların təxminən 20 faizi Bakıda yaşayır. Lakin Bakıda əhalinin sayı çox olduğu üçün burada hər min nəfərə düşən İİV-ə yoluxma halı azdır.

№ 83 (4214) ■ Qiyməti: 40 qəpik

# BAKI XƏBƏR

www.baki-xeber.com

22 MAY 2020-ci il



# "Titanik"in radioötürücüsü okeanın dibindən çıxarılacaq

**ABŞ-da məhkəmə "Titanik" gəmisindən radioötürücünün çıxarılması üçün əməliyyatın aparılmasına icazə verib.**

"Trend"in məlumatına görə, gəminin korpusunda işlərin 2020-ci ilin yayında başlanması planlaşdırılır. Qeyd olunur ki, "Markoni" radioötürücüsü həm tarixi, həm elmi-tədris, həm də mədəni dəyərə malikdir. Mütəxəssislər bildirirlər ki, işlər tezliklə başlamasa, qurğu tamamilə sıradan çıxa bilər. Qeyd edək ki, Böyük Britaniyadan ABŞ-a yola düşmüş "Titanik" gəmisi 1912-ci ilin aprelində aysberqlə toqquşaraq qəzaya uğramışdı. Hadisə nəticəsində 1 500 nəfər həlak olmuşdu.

## "Xiaomi" koronavirusdan qoruyacaq maska hazırlayıb

**"Xiaomi" şirkətinin törəməsi olan "Huami" şirkəti koronavirusdan qoruya biləcək üz maskası hazırlayıb. Bu haqda brendin nümayəndələri "TechCrunch" nəşrinə telefon müsahibəsində məlumat veriblər.**

"İctnews.az" bildirir ki, bazardakı ucuz analoqlardan fərqli olaraq, "Aeri" maskası plastikdən və filtrasiya edən elementlərdən hazırlanıb. Aksesuarın özəlliyi materialların şəffaf olmasıdır, yəni onu taxarkən istifadəçinin sifəti görünəcək. "Huami" şirkətinin rəsmisinin sözlərinə görə, bu xüsusiyyət maska sahiblərinə üztanıma funksiyasına malik smartfonlardan istifadəyə imkan verəcək. Həmçinin, "Aeri" maskası filtrasiya edən elementlərin dezinfeksiyası üçün lazım olan daxili ultrabənövşəyi lampa ilə təchiz edilib. Dezinfeksiya 10 dəqiqə davam edir və istifadəçi maskanı USB vasitəsilə enerji mənbəyinə qoşan andan başlanır. "Huami"nin nümayəndəsi bildirib ki, belə üsul yalnız aksesuarın daxili komponentlərini təmizləyir, maskanın üz hissəsini əl ilə dezinfeksiya etmək lazım olacaq. "Aeri" maskasının qoruyucu filtrinin istifadə müddəti 1,5 aydır, bundan sonra onu dəyişmək lazımdır. Qurğunun modulyar konstruksiyası əlavə detallar satın almağa və qoruyucu vasitəni müasirləşdirməyə imkan verir.

## Beyin hərfləri kor-koranə görə bilər

**Kor insanların əksəriyyətində görmə qabiliyyətinin itməsi ya gözdəki, ya da görmə sinirindəki problemlə əlaqədardır. Yəni beyin qaydasında olur və hansısa siqnalları qəbul edə bilər.**

AZƏRTAC bildirir ki, neyrobioloqların fikrincə, elektrod implantların köməyilə görmə nahiyəsini bilavasitə stimullaşdırmaq olar və kor adam da nəyisə görə bilər. Bu yolla mürəkkəb peyzajı modelləşdirmək çətin olsa da, hərfləri modelləşdirmək tam mümkündür. Aparılan eksperimentlərdə yanaşma adətən belə olub: hər elektrod vahid piksel rolunu oynaya bilər, beyin qabığına implant edilmiş elektrodpiksellər kompleksi isə hərfin təsvirini yaratmalıdır. Eksperiment zamanı elektrodların hamısı bir yerdə işə salınıb və nəticədə beyin hərfi deyil, aydın olmayan təsviri görüb. Beylor Universitetindən olan tədqiqatçılar isə məsələyə başqa cür yanaşıblar: elektrodları eyni vaxtda deyil, bir-birinin ardınca (şəkil çəkirmiş kimi) işə salıblar və beyinin görmə nahiyəsində sanki hərfin şəkli tədricən çəkilib. Eksperimentdə iştirak edən kor adamlar davamlı elektrod siqnalların köməyilə beyində hiss etdikləri fiquru sensor ekranda barmaqları ilə çəkə biliblər. Yəni davamlı elektrod siqnalları beyində hər hansı fiquru "görməyə" kömək edib. Təcrübədə sadə simvollardan, C, W və U kimi hərflərdən istifadə edilsə də, alimlərin fikrincə, beyinə daha mürəkkəb təsvirləri ötürmək mümkündür.



## Elan

Bakı şəhəri, Səbail rayonu, Şeyx Şamil küçəsi, ev 13, mənzil 12/12a ünvanı üzrə "Türk Dünyası Araşdırmalar Vəqfi" Xeyriyyə Cəmiyyətinə məxsus xüsusi mülkiyyətdə olan mənzilə aid Dövlət Reyestrindən №0265334 çıxarış (kupça) itirildiyi üçün etibarsız sayılır.

Şəki rayonu, Kiş kənd sakini Haqverdiyev Fikrət Göyüş oğlunun və ailə üzvlərinin adına verilmiş JN: 134 saylı torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyi üçün etibarsız sayılır.

Əsədova Qələmzər Ağəli qızının adına, Bakı şəhəri, Suraxanı rayonu, Qaraçuxur qəsəbəsi, Yeni Günəşli yaylası, 2-ci döngə, ev 14 ünvanının çıxarışı (seriya RX N0062789) və texniki pasport itdiyi üçün etibarsız sayılır.

Səmədov Mirzəağa Hüseynqulu oğlunun adına Bakı şəhəri, Xəzər (Əzizbəyov) rayonu, Mərdəkan qəsəbəsində yerləşən 0.10 ha torpaq sahəsinin 120 nömrəli bağın icarəyə verilməsi haqqında 19304 nömrəli müqaviləsi itdiyi üçün etibarsız sayılır.

Dadaşov Tərlan Kərim oğlunun adına, Abşeron rayonu, Ramana Südçülük sovxozu ərazisində yerləşən 0.10 ha torpaq sahəsinin müqaviləsi itdiyi üçün etibarsız sayılır.





**Qoç** - Aktiv, enerji ilə zəngin sizə faydalı və çoxsaylı işləri görməyə imkan verən gündür. Müxtəlif yerlərdə olacaq, fərqli insanlarla görüşəcəksiniz. Təmasların ab-havası sakit, yaradıcı və dostyana olacaq.



**Buğa** - Sizin üçün mühüm dövrlərdən biridir. Günəş və Plutonun tutduqları mövqelər bundan xəbər verir. Önəmli işin birindən imtina edərək başqasına başlayaraq sizin üçün ən əhəmiyyətli olanı seçin.



**Əkizlər** - Şərait dəyişir, sizdən səbr və məntiq, həyata fəlsəfi baxış tələb olunur. Günəş və Pluton sizin tərəfdaşlıq müstəvisini fəallaşdırıb. Münasibətlərdəki problemlər sizi narahat edərsə, onları məhz indi həll edin.



**Xərçəng** - Təzyiq, narazılıq hissləri keçirəcəksiniz. Hansısa önəmli məqamı nəzərdən qaçırdığınızı, yad ünsürlərin artmağa başladığını duyacaqsınız. Köhnəlmiş təmaslar və əlaqələrdən qurtulun.



**Şir** - Şərait sizdən güzəşt tələb edərsə, razılaşın. Hər şey bərpa olunacaq, yerini tapacaq. Bir sahədə uduzsanız, başqa sahədə mütləq önəmli irəliləyişə nail olacaqsınız. Alış-verişdə simiclik etməyin.



**Qız** - Münaqişələr qaçılmazdır. İctimai fəallığı gərəkli minimum səviyyəsinə endirin. İşlə məşğul olun. Fiziki iş daha məsləhətdir. Ətrafınızda qayda yaradın. Axşam saatlarında əhvalınız daha nikbin olacaq.



**Tərəzi** - Planların pozulmasını emosional qarşılamayın. Kimsə diqqətinizi yayındıra bilər. Günün ilk yarısında dostlarla planlaşdırılmamış görüş və ya tanışlarla problemin həlli mümkündür.



**Əqrəb** - Rəvan olmayan, həyəcanlar və emosiyalarla dolu gündür. Təxminlənməyən, qəfil hadisələrin sayını minimuma salın. Riskə getməyin, orqanizminiz üçün ifrat yük ola biləcək heç nə etməyin.



**Oxatan** - Çətin, güclü emosiyalar günüdür. Çətinlikləri yeni imkanların carçısı hesab edin. Situasiyaya fərqli baxın və ola bilər ki, ən mürəkkəb vəziyyətdə sərfəli məqamlar tapasınız.



**Oğlaq** - Təmkinl davranış münasibətləri tənzimləməyin ən yaxşı yoludur. Evdə qayğılar arta bilər. Qonaq gələcək, dəvət alacaqsınız. Səhər saatlarında görəcəyiniz işləri müəyyənləşdirin, axşam saatlarında isə istirahət edin, əylənin.



**Dolça** - İşlə bağlı məsələlərin sizi narahat edəcəyinə hazır olun. Bu gün virtual və ya real görüşləri müəyyənləşdirin. Görüşü axşam saatlarına qədər təxirə salın. Günün ilk yarısında münasibətlərin aydınlaşdırılması planları poza bilər.



**Balıqlar** - Mühüm situasiya böhran mərhələsinə daxil ola bilər. Batini dəyərləndirmədə fərqli vəziyyət yaranacaq. Ətrafınızda dəyişən şərtlərə, özü barədə məlumat vermək istəyənə, gələn xəbərlərə diqqət yetirin.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## Qanı təzələyən möcüzəvi su...

**Yulaf suyu (ovsyanka) qanı təmizləyir, təzələyir, qan dövranını yaxşılaşdırır, immuniteti artırır. Böyrəklərin, ürəyin işini yaxşılaşdırır. "Medicina.az" bildirir ki, yulaf əzməsinin suyu bir çox ağır xəstələri və artıq gücü-taqəti qalmayanları yenidən həyata qaytarıb.**

Bu suyu içənlər xeyli cavanlaşır, 70 yaşında 50 yaşlı kimi görünür. Bunu yulaf suyu reseptini üzərində tətbiq edən real pasiyentlər bildirir. Hazırlanması: Bunun üçün təmiz yulaf, yəni qabıqlı, kəpəkli yulaf lazımdır. 3 xörək qaşığı yulafın üzərinə yarım litr su alınır və orta odda qaynara düşənə kimi saxlanır. Su qaynara düşən kimi od azaldılır. Və çox zəif odda qarışım 15 dəqiqə bişirilir. Sonra onu ılıq hala gələnə kimi soyudub, tənzifdən sıxaraq süzürsünüz. Beləcə, yulaf suyu hazırdır. Gün ərzində içib bitirirsiniz. Günə 2 stəkandan artıq içmək olmaz. İçməyə başlayan kimi orqanizmdə müsbət dəyişiklik, gümrahlıq, yüngüllük hiss olunur.

*Hazırladı: Namiq QULİYEV*

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*

Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

Reyestr № 0106-P219-45846

Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa). «BZ»-də çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.